Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

ASCO

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

25 yanvar 2019-cu il № 5-8 (9287) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

20 Yanvar istiqlala gedən yolumuzu qısaltdı

Azadlığımızın hər gününü şəhidlərimizə borcluyuq

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib.

Mərasim Azərbaycanın müstəqilliyi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Səh. 2

Mükafat həm də daha yaxşı işləməyə ruhlandırır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilən ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının (DND) işçilərinə və Donanmanın veteranlarına medalların təqdimetmə mərasimi keçirilib.

Səh. 3

Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ilə bağlı məsələlər müzakirə olunub

Bakıda "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" (BTNM) Beynəlxalq Assosiasiyası (BA) Hüquqi Şəxslər Birliyinin (HŞB) ümumi yığıncağı keçirilib.

Səh. 4

Təlim - Tədris Mərkəzi qarşıya qoyulan bütün hədəflərə nail olur

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tərkibində fəaliyyət göstərən Təlim - Tədris Mərkəzi 2018-ci il ərzində qarşıya qoyulan bütün hədəflərə nail olub.

Mərkəzdə dənizçilərin sertifikatlaşdırılması üçün təlimlərin keçirilməsi, onların təcrübi məşğələləri və qiymətləndirilməsi xidmətləri ötən il də davam etdirilib.

Səh. 5

"Güzəştli mənzil" sistemindəki yeniliklər mayın 1-dən tətbiq ediləcək

Güzəştli mənziller əldə etmək daha rahat olacaq.

Mənzil İnşaatı Dövlət Agentliyindən (MİDA) bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda dəyişikliklər edilib.

Səh. 6

İdmanın intellektual növləri ilə məşğul olmaq ömrü uzadır

Avstraliya mütəxəssisləri müəyyən ediblər ki, şahmat oynamaq aydın zəka və fəal həyat tərzi tələb edir. Bu amillərin məcmusu şahmatçıların hətta idmanın fiziki növlərinin nümayəndələrindən də çox yaşamasına imkan verir.

Səh. 8

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyəti üçün bir çox ikitərəfli təmaslar olub, razılaşmalar əldə edilib. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanmışdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir. Türkmənistanla əldə edilmiş razılaşma imkan verəcək ki, digər Orta Asiya ölkələri, Əfqanıstan öz yüklərini Türkmənistandan keçməklə Azərbaycan ərazisindən Şərq-Qərb dəhlizi ilə dünya bazarlarına çıxara bilsinlər. Ələt Dəniz Ticarət Limanında xüsusi şərait yaradırıq. Müvafiq orqanlar həm tarif siyasətini, həm də tranzit imkanlarını dövlətlərarası səviyyədə tənzimləyiblər. Yəni, bu, bizim üçün yeni böyük nəqliyyat imkanları yaradır. Onu da bildirməliyəm ki, nəinki Orta Asiya ölkələri ilə, eyni zamanda, Əfqanıstanla danışıqlar aparılıb və aparılacaq. Biz Əfqanıstanın "Lapis-Lazuli" layihəsini Bakı-Tbilisi-Qars layihəsi ilə birləşdiririk. Artıq Əfqanıstandan da birinci yüklər Türkmənistan ərazisindən Azərbaycana, ondan sonra da Qərb istiqamətinə getməyə başlamışdır. Ona görə bizim hədəfimiz odur ki, Orta Asiyanın yüklərinin böyük hissəsini biz bu istiqamətə cəlb edək. Artıq bu proses başlanmışdır. Təbii ki, Türkmənistan bu imkanlardan istifadə edir, Tacikistan yükləri bu marşrutla gəlir, Əfqanıstan bu yolla yükləri göndərməyə başlayıb. Biz yaxın gələcəkdə Özbəkistanla da danışıqlar aparacağıq. Təbii ki, Qazaxıstanla bizim bu sahədə ənənəvi əməkdaşlığımız var və Qırğızıstan tərəfinə də biz öz təkliflərimizi göndərmişik. Ona görə çox böyük bir inkişaf olacaqdır. Biz isə keçən il Ələt Dəniz Ticarət Limanını işə saldıq, dəmir yolu da hazırdır, ona görə bütün infrastruktur var.

Keçən il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmir yolunun yenidən qurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmir yolunun yenidən qurulması davam etdiriləcək. Bakı-Astara dəmir yolunun yenidən qurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar Şimal-Cənub dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmir yolu var, ancaq sürət aşağıdır. Biz keçən ilin sonunda Bakı-Gəncə sürət qatarını istifadəyə verdik, indi vaxt nə qədər qısalıbdır. Sürət qatarları həm sərnişinlər, həm də yüklər üçün daha yaxşıdır. Bakı-Yalama yolunun yenidən qurulması prosesi başlayandan sonra və buna paralel olaraq biz "Şahdağ" kurortuna da dəmir yolunun çəkilişini təmin edəcəyik. Biz indi Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlamışıq. Bu da həm Tufandağa, həm də Qəbələyə turistlərin gəlişi üçün daha yaxşı şərait yaradacaqdır.

Onu da bildirməliyəm ki, keçən il Bakı və Sumqayıt dəmir yolu vağzalları yenidən quruldu. Bakı-Sumqayıt sürət qatarı işləyir və sərnişinlər bu qatardan çox razıdırlar. Müasir vaqonlar alınır. Ümumiyyətlə biz şəhər nəqliyyatı üçün əlavə tədbirlər görəcəyik. Bu il Bakıya 300 müasir avtobusun gətirilməsi nəzərdə tutulur, keçən il imzalanmış kontraktlara əsasən 300 avtobus da əlavə. Yəni, bu il Bakıya 600 avtobus gətiriləcək. Beləliklə, həm vətəndaşların rahatlığı təmin ediləcək, həm də təhlükəsizlik baxımından əlbəttə ki, bunun böyük faydası var.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

(Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)

Prezident bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsinə dair Fərman imzalayıb

Prezident İlham Əliyev Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

Fərmana əsasən Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi ləğv edilir və onun funksiyaları Nazirliyin Aparatına verilir. Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyinin əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi yaradılır. Maliyyə Nazirliyinin Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti ləğv edilir. Bundan başqa, Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi ləğv olunur.

Fərmana əsasən Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycanın digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Prezidentin 2012-ci il 5 sentyabr tarixli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçiriləcək.

Müəyyən edilir ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin saxlanılması üçün hər il üçün dövlət büdcəsindən ayrılan vəsaitin (dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) istisna olmaqla) yuxarı həddi nazirliyin tabeliyindəki qurumların ("AzInTelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti istisna olmaqla) dövlət büdcəsinə ödədiyi dividendin cəmi məbləğinin yuxarı həddi ilə məhdudlaşır.

Fərmanda Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, bir sıra nazirliklərə və digər dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

2019-cu il "Nəsimi ili"dir

Prezident İlham Əliyev yanvarın 11-də 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.

Sərəncamda qeyd edilib ki, şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin UNESCO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılıb.

Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görüb. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilib.

2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilib, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilib.

Sərəncamda vurğulanıb ki, 2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində təşkil edilməsi məqsədilə ölkə başçısının "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı ilə Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

Cəlil Məmmədquluzadənin 150 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda Mədəniyyət Nazirliyinə Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

Sərəncamda qeyd edilir ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapıb. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaradıb. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Prezident İlham Əliyev:“Biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk”

Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Bir kəmər, bir yol” təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı” mövzusunda sessiya keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər.

Sessiyanın aparıcısı: Gəlin Sizdən başlayaq, cənab Prezident. “Bir kəmər, bir yol” təşəbbüsü Azərbaycan kimi qonşu ölkə üçün nə deməkdir? Mən bilirəm ki, Siz ölkənizin iqtisadi fəaliyyətini təkcə neft-qaz sahəsinə yox, eyni zamanda, infrastrukturun qurulmasına yönəltmisiniz.

Prezident İlham ƏLİYEV: Bəli, siz tamamilə düz deyirsiniz. Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük. Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq. Biz, həmçinin nəqliyyat infrastrukturuna da sərmayə yatırmışıq. Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək.

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız Şimal-Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb.

Aparıcı: Mən etiraf etməliyəm ki, cənab Prezidentdən müsahibə almışam və o, bütün rəqəmləri xatırlayır. Biz hazırda bu rəqəmlərin yalnız kiçik hissəsini təhlil edirik.

Cənab Prezident, gəlin borcdan danışaq. Çünki Siz bu məsələ ilə dəfələrlə üzləşmisiniz. Əgər düz xatırlayıramsa, on il ərzində Siz borc barədə bir çox yerlərdən olan bir sıra insanların suallarını cavablandırmalı olmusunuz. Bu barədə nə deyə bilərsiniz?

Prezident İlham ƏLİYEV: İnfrastruktura gəlincə, biz onu əsasən dövlət büdcəsindən maliyyəşdirmişik. Hesab edirəm ki, infrastruktura investisiya qoymaq üçün neft və qaz satışından əldə etdiyimiz gəlirləri düzgün istiqamətə yönəltməyə müvəffəq olmuşuq və indi biz bununla fərəhlənə bilərik. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən yolların keyfiyyətinə gəlincə, Azərbaycan dünyada 34-cü yerdə qərarlaşıb. Bunu biz neft və qaz satışlarından əldə etdiyimiz vəsaitlə etdik. Sonra əlbəttə ki, bu, biznes mühitinin yaradılmasına gətirib çıxardı. Çünki sizin müasir infrastrukturunuz, qazlaşdırmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda onda bizneslər üçün də investisiya yatırmaq daha asan olacaq. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son “Doing Business” hesabatına əsasən Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq.

Aparıcı: İcazənizlə, mən bilirəm ki, Siz gözəl nəticələri qeyd edə bilərsiniz. Lakin bu nəticələrə aparan proses heç də həmişə asan olmur. Buna görə mən Sizdən bu borc məsələsini soruşuram. Çünki Siz bir çoxları kimi, infrastrukturun qurulması nəticəsində borcun yığılmasına görə tənqid olunmusunuz. Buna görə də Sizin fikrinizcə, borca gətirib çıxaran investisiyaları necə görürsünüz və bu məsələ öz həllini necə tapa bilər?

Prezident İlham ƏLİYEV: Bizim uzun illərdir ki, strategiyamız qazandığımızdan daha az xərcləməkdən ibarət olub. Yaxşı olardı ki, bu fərq daha da böyük olsun. Buna görə biz üzərimizə borc yığmamışıq. Daxili borca gəlincə, o, çox aşağıdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun yalnız 19 faizinə bərabərdir. Bizim bunu 10 faizə endirmək üçün strategiyamız var. Buna görə də bayaq da qeyd etdiyim kimi, Azərbaycanda həyata keçirdiyimiz bütün infrastruktur layihələri, yəni, qeyd etdiyim kimi, ölkələri bir-birinə birləşdirən layihələr borcsuz həyata keçirilmişdir. Biz iyirmi il bundan əvvəl - o qədər inkişaf etmədiyimiz və kasıb olduğumuz zaman borc götürmüşdük və borc götürmək məcburiyyətində idik. Bizə borc verən həmin maliyyə institutlarına minnətdarıq. İndi biz borc veririk. İndi Azərbaycanın təkcə başqa ölkələrə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası var. Eyni zamanda, biz digər ölkələrdə həyata keçirilən infrastruktur layihələri üçün borc pul veririk. Bizim borcumuzun infrastruktura heç bir aidiyyəti yoxdur. Lakin biz infrastruktura investisiya yatıranda dərhal vəsaitimizin geri qaytarılmasını gözləmirdik. Biz başa düşürük ki, geri qayıdacaq gəlir birbaşa olmayacaq. Siz yol tikdiyinizə görə pul qazanmayacaqsınız. Lakin siz mallarını bazara gətirmək üçün bu yoldan istifadə edənlər tərəfindən ödənilən vergilərdən qazanacaqsınız. Ya da bizim ərazidən tranzit kimi Şərqdən Qərbə və əks istiqamətdə istifadə edənlər tərəfindən ödənilən vəsaitdən qazanacağıq. Bu da sərmayədən geri qayıdan bir gəlirdir. Lakin hesab edirəm ki, daxildə infrastruktura və regional əməkdaşlığa sərf etdiyimiz vəsait ola bilsin on ildən sonra geri qayıtsın.

Aparıcı: Lakin heç də hər bir ölkə Azərbaycan kimi xoşbəxt ölkə deyil. Sizin çox zəngin neft və qaz ehtiyatlarınız var. Mən bunu bir gün içində təəccüb doğuran bir fakt kimi kəşf etdim. İnfrastrukturu quran və bu platformada iştirak edən digər ölkələr üçün bu, bir narahatlıqdırmı? Bunu tarazlaşdırmağın yolu nədən ibarətdir?

Prezident İlham ƏLİYEV: Hesab edirəm ki, bu, əlbəttə, narahatlıqdır. Bizim sərmayə yatırmaq üçün pulumuz olmasaydı, xarici investorlardan pul almaq məcburiyyətində olardıq. Mən sizə bir il yarım bundan əvvəl tamamladığımız dəmir yolu layihəsi timsalında bir misal çəkə bilərəm. Söhbət Şərqlə Qərbi birləşdirən Azərbaycan və Türkiyə arasında dəmir yolu bağlantısından gedir. Biz bir neçə illərdir xarici mənbələrdən maliyyələşməni axtarırdıq.

Aparıcı: Bu, nə zaman idi?

Prezident İlham ƏLİYEV: Bu, 2000-ci illərin əvvəlləri, 2004-2005-ci illər idi. Lakin bizim müraciətlərimizə rədd cavabı verilmişdi. Çünki sizin qeyd etdiyiniz kimi, investisiyalar heç ortamüddətli perspektivdə belə geri qayıtmayacaqdı. Əlbəttə ki, maliyyə ehtiyatları olmayan ölkələr üçün çox çətin olur. Maliyyə ehtiyatları olmayanların daha çox təxirəsalınmaz problemləri var. Məsələn, işsizlik, gəlir əldə etmək üçün iqtisadiyyatın real sektoruna investisiya yatırmaq və bu ölkələr üçün infrastruktur layihələri prioritet deyil. Buna görə düşünürəm ki, maliyyə institutları bu məsələyə daha çox diqqət ayırmalıdırlar. Xüsusilə aparıcı beynəlxalq maliyyə institutlarını nəzərdə tuturam. Onlar on il ərzində iş yerlərinin açılmasına imkanlar yaradacaq ölkələrə infrastruktur sahəsinə investisiya yatırmağa kömək etməlidirlər.

Sonra dövlətimizin başçısı auditoriyanın suallarını cavablandırdı.

Kornel Universitetindən Lurdis Kardsanella: “Bir kəmər, bir yol” təşəbbüsünün üzvü olan ölkələrin investisiyaları son beş ildə əlli faiz artmışdı. Çin şirkətlərinin ABŞ və Avropada üzləşdiyi məhdudiyyətləri nəzərə alsaq, gələcəkdə bu kimi artım müşahidə olunacaqmı?

Çinin və dünyanın ən böyük enerji şirkətinin nümayəndəsi: Sualım Zati-aliləri Prezident Əliyevədir. Mən bilirəm ki, Siz nəqliyyat sahəsində infrastruktura diqqət yetirirsiniz. Lakin elektrik enerjisinin təchizatı da daxil olmaqla enerji infrastrukturu barədə nə deyə bilərsiniz? Bizim şirkətlər üçün bu sahədə potensial imkanlar varmı? Çox sağ olun.

İsveçrə parlamentinin nümayəndəsi Fred Bigli: “Bir kəmər, bir yol” təşəbbüsü hansı dərəcədə infrastruktur layihəsidir və hansı dərəcədə xarici siyasi münasibətlərin birləşməsi layihəsidir?

Tailandda fəaliyyət göstərən “Omata Group” şirkətinin əməkdaşı Lina: Mənim sualım belədir ki, biz Çin və ABŞ gərginliyi haqqında çox danışdıq. Bu gərginlik “Bir kəmər, bir yol” təşəbbüsünü ləngidəcək, yoxsa sürətləndirəcək? Sağ olun.

Prezident İlham ƏLİYEV: Biz elektrik enerji generasiyasına çoxlu sərmayə yatırmışıq. İndi biz defisiti tamamilə azaltmışıq, elektrik enerjisinin xalis ixracatçısına çevrilmişik və 10 milyonlarla dollar qazanmışıq. Biz sərmayələrə açığıq. Biz, həmçinin şirkətləri podratçı olmağa dəvət edirik. Bu il biz yeni elektrik stansiyasını istismara verəcəyik və onun gücü 400 meqavat olacaq. Əlbəttə ki, biz indi səmərəlilik, itkilərin azaldılması üzərində işləyirik. Praktik nöqteyi-nəzərdən siz investor, podratçı qismində - istənilən qisimdə ölkəmizə gəlsəniz mən çox şad olardım.

İsveçrə parlamentinin nümayəndəsinin verdiyi suala da toxunmaq istəyirəm. Mən tamamilə əminəm ki, ölkələri birləşdirən istənilən nəqliyyat layihəsinin geosiyasi əsası var. Bu layihələr geosiyasi vəziyyətə, sabitliyə, proqnozlaşdırmaya müsbət təsir göstərir. Çünki bu layihələr qarşılıqlı asılılıq yaradır. Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq.

x x x

Sessiyanın digər iştirakçıları - Ümumçin Sənaye və Ticarət Federasiyasının sədr müavini Vanq Yonq-qinq, “China Poly Group” Korporasiyasının sədri Su Niansha və Sinqapurun maliyyə naziri Henq Svi Keat mövzu ilə bağlı müzakirələrdə iştirak etdilər.

20 Yanvar istiqlala gedən yolumuzu qısaltdı

Azadlığımızın hər gününü şəhidlərimizə borcluyuq

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də (ASCO) 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib.

Mərasim Azərbaycanın müstəqilliyi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Daha sonra çıxış edən ASCO-nun sədri Rauf Vəliyev 29 il əvvəl dinc insanlara qarşı Sovet imperiyasının silahlı birləşmələrinin törətdiyi cinayətlərdən danışaraq, 20 Yanvar hadisəsinin tariximizə ən faciəli günlərdən biri, eyni zamanda, qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu bildirib.

Rauf Vəliyev başımıza gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Ulu öndər Heydər Əliyevin atdığı qətiyyətli addımlardan da ətraflı söz açıb. Diqqətə çatdırıb ki, Ümummilli Liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən bir gün sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirib, qoşunların Bakıdan çıxarılmasını tələb edib.

Rauf Vəliyev Prezident İlham Əliyevin də Azərbaycanın müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə və sağlamlıqlarını itirmiş şəxslərə xüsusi qayğı ilə yanaşdığını vurğulayıb.

Gəmiçiliyin rəhbəri onu da qeyd edib ki, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemləri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da hər zaman diqqət mərkəzindədir.

Rauf Vəliyev xalqımız üçün o ağır günlərdə dənizçilərin göstərdiyi fədakarlıq və qəhrəmanlıqlardan da danışıb. Bildirib ki, dənizçilər sovet hərbçilərinin təcavüzünə qətiyyətlə sinə gərməyi, birlik nümayiş etdirməyi bacarıblar. Həyatlarını riskə atıb, Vətən uğrunda ölümlərini gözə alıblar.

Sədr əlavə edib ki, ASCO-da mütəmadi olaraq 20 Yanvar hadisələrinə işıq salmaq, tariximizi unutmamaq, dənizçilərin qəhrəmanlıqlarını gənc nəslə çatdırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

Rauf Vəliyev onu da deyib ki, hər il ənənəvi olaraq 20 yanvar tarixində saat 12:00-da Bakı buxtasındakı gəmilər şəhidlərin xatirəsinə ehtiram əlaməti kimi fasiləsiz fit verməklə anım dəqiqəsinə qoşulurlar.

Daha sonra hadisələrin canlı şahidləri - veteran dənizçilər Muxtar Axundov və Kərəm Məmmədov çıxış ediblər. Onlar hadisəni dünya ictimaiyyətinə çatdırmağa, sovet imperiyasının törətdiyi qırğın və vəhşiliyin qarşısını almağa çalışan həmkarlarının şücaətindən və qəhrəmanlığından danışıblar. Bildiriblər ki, o günlər dənizçilər bütün dünyanın diqqətini Bakıdakı qanlı faciəyə yönəltmək üçün gəmilərimizdən hər saat “SOS” siqnalı veriblər, Bakı buxtasında imperiya ordusu ilə qeyri-bərabər mübarizəyə qalxıblar. Hadisə şahidləri vurğulayıblar ki, həmin dövrdə Azərbaycan dənizçiləri bütün xəbərdarlıqlara və hədələrə baxmayaraq bir addım belə geri çəkilməyiblər. Dənizçilərimiz geri çəkilmədiyindən hərbçilər mülki gəmilərimizi müxtəlif silahlardan atəşə tutublar. Həmin atəş izləri hələ də bəzi gəmilərin üzərində durur.

Çıxışlardan sonra tədbir iştirakçıları 20 Yanvar faciəsi günlərində böyük şücaət göstərən və xalqımızın haqq səsini öz həmkarlarının köməyi ilə dünya ictimaiyyətinə çatdıran “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC dənizçilərinin qəhrəmanlığına həsr olunan “Azadlıqla bitən SOS” sənədli filminə baxıblar.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rəhbər şəxslərinə yubiley medalı təqdim edilib

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) sədr müavinləri, struktur, şöbə və departament rəhbərlərinə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub.

Təqdimetmə mərasimində ASCO-nun sədri Rauf Vəliyev ölkəmizdə gəmiçilik sahəsinə göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, istər Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində, istərsə də cənab İlham Əliyevin hakimiyyəti illərində gəmiçilik sahəsinin inkişafı xüsusi diqqətdə saxlanılıb.

Azərbaycan dənizçilərinin daim dövlətin qayğısı ilə əhatə olunduğunu xüsusi vurğulayan Rauf Vəliyev bildirib ki, hər il əməkdə fərqlənən dənizçilər Prezident İlham Əliyevin sərəncamı ilə müxtəlif ali mükafatlara layiq görülürlər. 160 illik yubiley ərəfəsində gəmiçilik sahəsində səmərəli fəaliyyətə görə iki yeni medalın təsis edilməsi də bu sahədə çalışanlara diqqətin əyani sübutudur.

Sonra “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) sədr müavinləri, struktur, şöbə və departament rəhbərlərinə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.

Medala layiq görülənlər arasında “Caspian Marine Services Limited” şirkətinin direktoru Zamiq İsmayılov və Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Səməd Allahverdiyev də olub.

ASCO-nun sədri Rauf Vəliyev mükafatçıları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Yubiley medalına layiq görülənlər öz növbəsində əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirib, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz veriblər.

Mükafat həm də daha yaxşı işləməyə ruhlandırır

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilən ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının (DND) işçilərinə və Donanmanın veteranlarına medalların təqdimetmə mərasimi keçirilib.

Tədbirdə ölkədə dəniz nəqliyyatı sahəsinə göstərilən qayğıdan danışılıb. Qeyd olunub ki, donanmaların mütəmadi yenilənməsi, xarici sularda yeni gəmilərin istismara verilməsi, dənizçilərin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər birbaşa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gəmiçiliyə və dənizçilərə diqqətinin bariz nümunəsidir.

Çıxışlardan sonra ASCO-nun sədri Rauf Vəliyevin sərəncamına əsasən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalına layiq görülən dənizçilərə medallar təqdim olunub, onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirən dənizçilər göstərilən etimadı əməli işləri ilə doğruldacaqlarını, ölkənin tərəqqisi, dəniz nəqliyyatının inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini söyləyiblər.

Qeyd edək ki, tədbirdə yubiley medalı ilə yanaşı, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi münasibətilə Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanovun əmrinə əsasən “Donanmanın Fəxri işçisi” adına layiq görülən mütəxəssislərə döş nişanları da təqdim olunub.

66 ölkəyə vizasız səfər edə bilərik

Yaşayış yerinin planlaşdırılması sahəsində dünya üzrə lider sayılan “Henley & Partners” şirkəti mütəmadi yenilənən qlobal “Pasportlar indeksi” reytinqinin növbəti versiyasını dərc edib. Yeni reytinqdə Azərbaycan pasportunun mövqeləri möhkəmlənib.

Yenilənmiş “Pasportlar indeksi” reytinqinə əsaslanaraq xəbər verir ki, Azərbaycan vətəndaşları 66 ölkəyə vizasız səfər edə bilərlər. Şirkətin məlumatında deyilir: “Üç ay bundan əvvəl olduğu kimi, 2019-cu ilin əvvəlində də Azərbaycan vətəndaşları dünyanın 66 ölkəsinə vizasız rejimdə səfər etmək imkanına malikdirlər. Son üç ayda İndeksdə bir pillə yuxarı qalxmış Azərbaycan hazırda 104 ölkə arasında 74-cü yeri tutur”.

Qeyd edək ki, bir il bundan əvvəl Azərbaycan vətəndaşları dünyanın 63 ölkəsinə vizasız səfər edə bilərdi.

2019-cu ilin əvvəlində İndeksin lideri Yaponiya olub. Bu ölkənin vətəndaşları dünyanın 190 dövlətinə vizasız səfər edə bilərlər. Bir il bundan əvvəl müvafiq göstəricisi 177 ölkə olan Almaniya İndeksdə birinci yeri tuturdu. Hazırda Fransa ilə eyni göstəriciyə (188 ölkə) malik olan Almaniya üçüncü yeri onunla bölüşür.

İkinci yeri tutan Cənubi Koreya son üç ayda vizasız səfər etmək imkanı olan ölkələrin sayına görə Hindistanı geridə qoyub və indeksdə bir pillə irəliləyib. “Henley & Partners” şirkətinin hesabatında göstərilir ki, Sinqapur da ikinci yerdədir (189 ölkə).

Son üç ayda Rusiya, Türkiyə və Qazaxıstanın göstəriciləri dəyişməyib. Bu dövlətlərin vətəndaşları, müvafiq surətdə, 119, 111 və 76 ölkəyə vizasız rejimdə səfər edə bilərlər. Gürcüstan iki yeni ölkə ilə vizasız gediş-gəliş rejimi barədə müqavilə bağlayıb və hazırda 114 ölkə göstəricisi ilə 51-ci yeri tutur.

İndeksdə sonuncu yerləri İraq və Əfqanıstan tutur. Bu dövlətlərin vətəndaşları 30 ölkəyə vizasız səfər edə bilərlər.

Hazırda 6-cı yeri tutan (185 ölkə) Böyük Britaniya və ABŞ İndeksdə mövqelərini itirməkdə davam edirlər. Ekspertlər bu ölkələrin 2015-ci ildə tutuqları birinci yerdən xeyli aşağı düşməsini onların yürütdüyü “bağlı qapılar” siyasəti ilə izah edirlər.

Qeyd edək ki, “Henley & Partners” şirkəti yaşayış yerinin planlaşdırılması sahəsində beynəlxalq liderdir. Hər il yüzlərlə imkanlı adam, onların ailə üzvləri və şəxsi məsləhətçiləri şirkətin bu sahədə çoxillik təcrübəsindən bəhrələnir. Şirkətin mütəxəssislərindən ibarət komanda dünyanın müxtəlif guşələrində 30-dan çox ofisdə xidmət göstərir.

“Henley & Partners” şirkəti 1990-cı illərdə investisiya vətəndaşlığı və müvəqqəti pasport konsepsiyasını yaradıb. Müasir dövrdə alternativ vətəndaşlıq və ya müvəqqəti pasport almaq barədə düşünən beynəlxalq sahibkarların və investorların sayı get-gedə artır.

“Henley & Partners” şirkəti həm də müxtəlif ölkələrin hökumətlərinin müşaviri qismində çıxış edir. Ayrı-ayrı ölkələrin iqtisadiyyatına birbaşa xarici investisiyalar kimi 8 milyard ABŞ dollarından çox vəsait cəlb etmiş bu şirkət dünyada bir neçə ən uğurlu investisiya proqramının işlənib hazırlanmasında və tətbiq olunmasında iştirak edib.

BMT Aralıq dənizində qaçqın faciəsinə son qoymağa çağırıb

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) Avropaya getmək istəyən 170 afrikalı qaçqının həlak olması və itkin düşməsi ilə bağlı bəyanat yayıb. Təşkilatın qaçqınlar üzrə ali komissarı Filippo Qrandi bildirib ki, bu faciələrə son qoyulmalı, beynəlxalq təşkilatlar və inkişaf etmiş dövlətlər müvafiq tədbirlər görməlidirlər.

Müxtəlif qeyri-hökumət təşkilatlarının məlumatına görə, son günlər Aralıq dənizinin qərbində Afrika ölkələrindən Avropaya getmək istəyən 57 nəfərin cəsədi tapılıb. Qayığın batması nəticəsində 24 saat dənizdə qalan bir nəfəri isə Mərakeşdə xəstəxanaya çatdırmaq mümkün olub. Hazırda İspaniya və Mərakeşin xilasedici qrupları axtarış-xilasetmə tədbirlərini davam etdirirlər.

İtaliya donanması da Aralıq dənizinin mərkəzində Liviyadan qaçqınları daşıyan qayığın batdığı barədə xəbər verib. Lampedusa adası yaxınlığında 3 nəfəri xilas etmək mümkün olsa da, itkin düşmüş qalan 117 nəfərin taleyi məlum deyil.

UNHCR-in məlumatına görə, 2018-ci ildə Aralıq dənizi vasitəsilə Avropaya getmək istəyən 2262 qaçqın həlak olub. “Biz Avropanın qapılarına minlərlə insanın həyatını itirməsinə göz yuma bilmərik. Təəssüf ki, qaçqın axınının qarşısının alınması və onların həyatının xilası üçün heç bir ciddi tədbirlər görülmür”, -deyə BMT ali komissarı vurğulayıb. Onun sözlərinə görə, bəzi dövlətlərin dənizdə batan qaçqınları xilas edən QHT-lərə qarşı mənfi münasibəti yolverilməzdir, eyni zamanda, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, silahlı münaqişələr və yoxsulluqdan qaçan insanların Avropada leqal yollarla sığınacaq alması üçün də təsirli tədbirlər həyata keçirilməlidir.

İran ilə Yaponiya arasında neft ticarəti bərpa edilib

Yaponiya ilə İran arasında neft ticarəti bərpa edilib. Yaponiya şirkətləri neft almaq üçün İrana sifariş veriblər.

Bu sözləri İranın Mərkəzi Bankının sədri Əbdülnasir Himməti bəyan edib. Onun sözlərinə görə Türkiyə, Hindistan, Cənubi Koreya və Çindən sonra Yaponiya da İran ilə neft ticarətini bərpa edib.

ABŞ-ın sanksiyalarına baxmayaraq, bir sıra dövlətlərin İran ilə neft ticarətini bərpa etməsi ölkə iqtisadiyyatında canlanmaya səbəb olub. İlk növbədə, qeyd etmək lazımdır ki, İranın milli valyutası sabitləşməyə başlayıb.

Mərkəzi Bankin sədri bildirib ki, ABŞ İran iqtisadiyyatını dağıda bilməyəcək. Əvvəla İranın iqtisadiyyatı yerli istehsalı artırmağa yönəlib və İran zəruri mallara olan tələbatını milli istehsal ilə ödəyir. Digər tərəfdən ABŞ İranı təkləyə bilmədi. İran dünya dövlətləri ilə iqtisadi və maliyyə əməkdaşlığını davam etdirir.

Yaponiya İrandan daim neft alıb və qarşılıqlı əlaqələrdə heç bir problem müşahidə edilməyib. Odur ki, rəsmi Tokio sanksiyalara baxmayaraq, milli maraqlarını üstün tutur və İranla ticarət əlaqələrini davam etdirmək qərarına gəlib. Yaponiyanın sifarişləri qəbul ediləcək və istədiyi həcmdə neft satılacaq.

Rabil Kətanov

Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ilə bağlı məsələlər müzakirə olunub

Bakıda "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" (BTNM) Beynəlxalq Assosiasiyası (BA) Hüquqi Şəxslər Birliyinin (HŞB) ümumi yığıncağı keçirilib.

Yığıncaqda "Qazaxıstan Dəmir Yolları" Milli Şirkətinin prezidenti Sauat Mınbayevin birliyin idarə heyətinin sədri vəzifəsinə təsdiq edilməsi, "Batumi dəniz limanı" MMC-nin birliyin daimi üzvlüyündən assosiativ üzvlüyünə keçirilməsi, 2018-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat, 2019-cu il üçün marşrut üzrə təsdiq edilmiş tarif dərəcələrinə dair BTNM-in inkişafı üzrə işçi qrupunun məlumatı, birliyin ötən ildəki maliyyə-təsərrüfat fəaliyyətinin auditi üçün audit şirkətinin seçilməsi və təsdiq olunması nəzərdən keçirilib. Həmçinin 2019-cu il üçün marşrut üzrə daşınma həcmlərinin, 2019-cu il üçün birliyin büdcəsinin, cari il üçün marketinq üzrə tədbirlər planının təsdiq edilməsi, işçilərin ezamiyyəti haqqında Əsasnamənin və birliyin nümayəndəlik xərcləri haqqında əsasnamənin təsdiq edilməsinə dair məsələlər müzakirə olunub.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanovun sədrliyi ilə keçən müzakirələrdə Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutundan səmərəli istifadə, dəhlizin potensialından istifadə olunması, bu marşruta yük axınının cəlb edilməsinin zəruriliyi vurğulanıb. Bildirilib ki, bu marşrut üzrə daşımaların effektivliyinin və qarşılıqlı əlaqələndirmə işlərinin operativliyinin artırılması üçün böyük potensial mövcuddur. Bu dəhlizin daha da inkişaf etdirilməsi üçün iştirakçı ölkələr tərəfindən ardıcıl tədbirlər görülür. Marşrutun rəqabət qabiliyyətinin artırılması istiqamətində ən mühüm nailiyyətlərdən biri də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsidir. Bakı-Tbilisi-Qars dəmir yolu, təkcə Azərbaycan, Gürcüstan və Türkiyə arasında deyil, Avrasiya regionunda əməkdaşlığın və ticarətin inkişafına töhfə verməklə, Avropa ilə Asiya arasında yükdaşımaların həcminin artmasına şərait yaradır.

Yığıncaqda qeyd olunub ki, "Qazaxıstan Dəmir Yolları" Milli Şirkəti idarə heyətinin sədri Kanat Alpısbayevin başqa işə keçməsi ilə əlaqədar "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyi idarə heyətinin sədri vəzifəsindəki səlahiyyətlərinə də xitam verilib. Yığıncaqda "Qazaxıstan Dəmir Yolları" Milli Şirkəti idarə heyətinin sədri S.Mınbayev "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyi idarə heyətinin sədri vəzifəsinə təsdiq edilib.

İki gün davam edən yığıncaqda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri C.Qurbanov, "Qazaxıstan Dəmir Yolları" Milli Şirkəti idarə heyətinin sədr müavini Sanjar Yelyubayev, "Gürcüstan Dəmir Yolu" SC-nin sədri David Peradze, Ukrayna Dəmir Yolları idarə heyətinin üzvü Remiqiuş Paşkeviç, Türkiyənin Dövlət Dəmir Yolunun yük daşımaları üzrə baş direktoru Veysi Kurt, "Aktau Beynəlxalq Dəniz Ticarət Limanı" SC-nin sədri Abay Turikpenbayev, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovun iştirakı ilə müvafiq protokol imzalanıb.

2018-ci ildə Azərbaycanda 38,8 milyon tondan çox neft çıxarılıb

Ötən il Azərbaycanda 38,8 milyon tondan çox neft hasil edilib.

Bu barədə "Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 2018-ci ildə görülmüş işlərə dair" hesabatda deyilir.

Bildirilir ki, keçən il respublikada proqnozdan 849 min 900 ton çox olmaqla 38 milyon 802 min ton neft hasil edilib. Hasil olunan neftin 28 milyon 722 min tonu "Azəri-Çıraq-Günəşli"-nin, 2 milyon 540 min tonu "Şahdəniz"in (kondensat), 7 milyon 540 min tonu isə SOCAR-ın payına düşüb.

İl ərzində 32 milyon 666 min 400 ton neft ixrac edilib ki, bunun da 31 milyon 247 min 900 tonu konsorsiumun, 1 milyon 418 min 500 tonu SOCAR-ın payına düşüb. Xam neftin emalı 6 milyon 95 min ton olub ki, bu da proqnozdan 184 min ton çoxdur.

OPEC+ çərçivəsində Azərbaycan gündəlik neft hasilatını 35 min barrel azaldaraq hasilat həcmini 834 min barrel səviyyəsində saxlamaqla bağlı öhdəlik götürüb. Hesabat ili ərzində orta gündəlik neft hasilatı təxminən 792,5 min barrel olub.

Azərbaycan keçən il ən çox bu ölkələrə məhsul göndərib

2018-ci ildə Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, ötən il ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və İsrail qərarlaşıb. İtaliyaya ixrac 5 milyard 879 milyon 775 min ABŞ dolları, Türkiyəyə 1 milyard 825 milyon 981 min dollar, İsrailə isə 1 milyard 310 milyon 824 min dollar dəyərindədir.

Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında ilk üçlükdə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 6 milyard 219 milyon 861 min dollar, Türkiyə ilə 3 milyard 402 milyon 846 min dollar, Rusiya ilə isə 2 milyard 550 milyon 906 min dollar təşkil edib.

Yeni Bakı Limanı MDB-də "yaşıl liman" statusuna malik ilk liman olacaq

ABS Quality Evaluations
Certificate Of Conformance
ISO 14001:2015
MULTI-PURPOSE PORT FACILITIES

Ələt qəsəbəsindəki yeni Bakı Limanı MDB ölkələri arasında "yaşıl liman" statusuna malik ilk liman olacaq.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirilib ki, yeni Bakı Limanı beynəlxalq İSO 14001:2015 sertifikatlaşdırma auditini müvəffəqiyyətlə keçib. İSO 14001:2015 "Ətraf mühitin idarəetmə sistemi" üçün göstəriciləri müəyyən edir və bu standart üzrə sertifikatlaşdırma həyata keçirir. Sertifikatlaşdırma Bakı Limanının İSO 14001:2005 standartının ekoloji tələblərinə uyğun olaraq fəaliyyət göstərdiyini təsdiq edir. Bu sertifikat ən çox tanınmış və qəbul edilmiş ətraf mühit menecment standartıdır.

Bakı Limanı fəaliyyətinin ilk günlərindən ətraf mühit, ekoloji standartların tətbiqinə xüsusi önəm verir. Belə ki, hazırda "yaşıl liman" konseptinin tələblərinə uyğun olan Bakı Limanı Xəzər dənizi hövzəsində ilk belə limandır. Burada çirkab suların təmizlənməsi üçün 3 müxtəlif qurğu inşa edilib. Həmin qurğular çirkab sularının təmizlənməsi üçün bakterioloji əsaslı sutkalıq gücü 600 kubmetr təşkil edən sutəmizləmə, gəmilərdən kənarlaşdırılan neftlə çirklənmiş suların təmizlənməsi qurğuları, yağış zamanı meydana gələn səth sularının təmizlənməsi üçün septiklərdən ibarət təmizləmə sistemidir.

Dəniz Akademiyasının tələbələri beynəlxalq gəmiçilik şirkətinin gəmilərində təcrübə keçəcəklər

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) yüksək ixtisaslı gənc mütəxəssislərin hazırlanması, işçilərin təlimləndirilməsi, onların dənizçilik sahəsində beynəlxalq təcrübəyə dərindən yiyələnməsi istiqamətində ardıcıl addımlar atılır. Bu məqsədlə dünyanın müxtəlif aparıcı gəmiçilik şirkətləri və universitetləri ilə əməkdaşlıq edilir.

ASCO-nun uğurla əməkdaşlıq etdiyi beynəlxalq şirkətlər sırasında "Columbia Shipmanagement Ltd" də önəmli yerlərdən birini tutur.

Sözügedən şirkətlə imzalanan müqaviləyə əsasən, Gəmiçiliyin əməkdaşları mütəmadi "Columbia Shipmanagement Ltd"-nin gəmilərində təcrübəyə göndərilir.

Layihə çərçivəsində növbəti seçimlər Azərbaycan Dövlət Dəniz Akademiyasında baş tutub. Bu məqsədlə ASCO sədrinin müşaviri Titos Giannakaksis dördüncü kurs tələbələri arasında müsahibə aparıb. Müsahibə zamanı ADDA-nın 15 tələbəsi ilk mərhələni keçib. Final müsahibəni isə fevralın 1-də "Columbia Shipmanagement Ltd"-nin İnsan resursları və heyət üzrə direktoru Norman Schmiedl aparacaq.

Müsahibədən uğurla keçən namizədlər əvvəlcə "Columbia Shipmanagement Ltd"-nin Gürcüstandakı nümayəndəliyində tanışlıq təliminə cəlb ediləcəklər, daha sonra onlar şirkətin gəmilərinə yollanacaqlar. Burada gənclər üç aylıq müxtəlif ölkələrin nümayəndələrindən ibarət heyətlə işləyəcəklər, daha böyük tankerlərin iş prinsipi ilə yaxından tanış olacaqlar, dünyanın böyük limanlarına getmək imkanı qazanacaqlar.

Seçim prosesi zamanı iştirakçıların xarici dil bilikləri əsas götürülür.

Donanmalarını daim yeniləyən Gəmiçilik gələcəkdə bu kadrların əldə etdiyi təcrübədən bəhrələnmək niyyətindədir.

TAP konsorsiumu 3,9 milyard avro ilə layihənin maliyyələşməsini uğurla başa çatdırıb

Avropada strateji layihələrdən biri olan Trans-Adriatik boru kəmərinin (TAP) tikintisi üzrə konsorsium 2018-ci ilin yekunlarına görə layihənin maliyyəsinin bağlanmasını uğurla başa çatdırıb və 3,9 milyard avro vəsait əldə edib.

Bu barədə yanvarın 11-də TAP layihəsinin rəsmi internet saytında yerləşdirilmiş məlumatda xəbər verilir.

Layihənin icraçı direktoru Luka Şipattinin məlumatda yer almış sitatında deyilir: "Layihənin reallaşdırılmasında daha bir mühüm addım atılıb. TAP beynəlxalq maliyyə institutlarının tələb etdiyi ekoloji və sosial standartlara əməl etməyi könüllü şəkildə öz üzərinə götürür. Beləliklə, bu öhdəlikləri təsdiq edən bütün lazımi tədbirlər həyata keçirilib və yerinə yetirilib. Layihənin maliyyələşməsi başa çatdıqdan sonra TAP onun tikintisinin yekunlaşması və 2020-ci ildə "Şahdəniz-2" yatağından qaz tədarükü mərhələsinə keçə bilər".

Avropa İnvestisiya Bankının (AİB) vitse-prezidenti Endryu Makdauell deyib: "Avropa İnvestisiya Bankı TAP-ın Avropada enerji təchizatı təhlükəsizliyinin artırılmasına mühüm töhfə olacağını nəzərə alaraq, bu layihənin həyata keçirilməsinə 700 milyon avro ayırıb. AİB layihənin bütün tərəfdaşları arasında sıx əməkdaşlığın davam etməsini alqışlayır".

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) dayanıqlı infrastruktur üzrə idarəedici direktoru Nandita Parşad bildirib: "Trans-Adriatik boru kəməri Cənub-Şərqi Avropada qaz bazarının inteqrasiyası üçün zəmin olacaq və energetika mərkəzi kimi regionun strateji statusunu gücləndirəcək. Hesab edirik ki, qaz bu regionda mühüm keçid yanacağı kimi kömürü sıradan çıxarmağa və bərpaolunan enerji mənbələrinin istifadəsinə kömək edəcək".

Məlumatda qeyd olunur ki, maliyyələşmə AİB və AYİB-lə yanaşı, 17 kommersiya bankı tərəfindən həyata keçirilir. Maliyyə vəsaitinin bir hissəsini "Bpifrance", "Euler Hermes" və "Sace" kimi ixrac kredit agentlikləri ödəyirlər.

Layihə çərçivəsində kommersiya borcunu beynəlxalq maliyyə institutları və ixrac kredit agentliklərindən alınan vəsaitlə cəmləşdirən üçüncü şəxs tərəfindən 16,5 il müddətində ödəniləcək güzəştli borc qismində 3,765 milyard avro cəlb olunub. Ümumi vəsaitə AİB (700 milyon avro), AYİB (1 milyard avro), "Bpifrance" (450 milyon avro), "Euler Hermes" (280 milyon avro), "Sace" (700 milyon avro), habelə kommersiya banklarının ayırdıqları 635 milyon avro daxildir.

Xatırladaq ki, əvvəllər boru kəmərinin tikintisi xərcləri tamamilə TAP-ın səhmdarları tərəfindən ödənilirdi: "BP" (20 faiz), SOCAR (20 faiz), "Snam" (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axro" (5 faiz).

Ümumi dəyəri 4,5 milyard avro olan Trans-Adriatik qaz kəməri "Cənub Qaz Dəhlizi" layihəsinin tərkib hissəsidir. Bu kəmərlə ilkin mərhələdə ildə 10 milyard kubmetr qazın nəqli nəzərdə tutulur, sonrakı illərdə bu həcm artırıla bilər. Boru xəttinin uzunluğu 878 kilometrdir. TAP-ın 550 kilometrlik hissəsi Yunanıstan, 215 kilometri Albaniya, 105 kilometri Adriatik dənizinin dibi və 8 kilometri İtaliya ərazisindən keçəcək.

Şimal-Cənub dəhlizinə artan maraq Azərbaycanın bu layihəyə cəlb olunmasının uğurlu olduğunun göstəricisidir

Hindistan İranın Çabahar limanının yenidən qurulması üçün 2 milyard dollar həcmində sərmayə yatırdıqdan sonra limanın bir hissəsi bu ölkənin şirkətinin idarəçiliyinə verildi. Hindistanın Çabahar limanına maraq göstərməsi təsadüfi xarakter daşımır. İnkişaf edən iqtisadiyyat idxal ixrac əməliyyatlarının həcminin artmasına səbəb olub.

İran hökuməti Çabahar limanını Azad İqtisadi Zona (AİZ) elan edib. Çabahar AİZ-nin Direktorlar Şurasının sədri Əbdülrəhim Kardi bildirib ki, burada 3000 şirkət qeydiyyata alınıb, onlardan 400-ü 15 xarici dövlətə məxsusdur. Hələlik limanın yükaşırma gücü ildə 8,5 milyon tondur. Liman tam yenidən qurulduqdan sonra yükaşırma imkanı 15 milyon tona çatacaq. Bundan başqa Çabahar-Zahedan şəhərləri arasında dəmir yolu xətti də çəkilir və 3 ildən sonra yol istismara veriləcək.

Qeyd etmək lazımdır ki, müəyyən siyasi prosesləri nəzərə alan ABŞ İrana qarşı iqtisadi sanksiyaları gücləndirsə də Çabaharı sanksiyalar siyahısından çıxarıb. Bunun səbəbini aşağıda göstərəcəyik.

İranın Sakit Okean sahilində yeganə limanı olan Çabaharın inkişafı Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tam olaraq formalaşmasında mühüm rola malikdir. Cənubdan Şimala və əks istiqamətə yüklərin daşınması məhz Azərbaycan ərazisindən istifadə olunaraq həyata keçiriləcək. Azərbaycan ilə İranın dəmir yolları sistemləri Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti ilə artıq birləşib və Rusiya ilə İran arasında idxal-ixrac əməliyyatları həyata keçirilir. Lakin Şimal-Cənub dəhlizi Asiya ilə Avropanı birləşdirir. Bu dəhlizlə Asiya ölkələrinin ixrac yükləri Çabahara oradan isə Qəzvin-Rəşt-Astara dəmir yolu vasitəsilə Azərbaycan və Rusiya ərazilərindən keçməklə Avropaya daşınacaq.

Yanvarın 9-da İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin Hindistana səfəri bir daha göstərdi ki, rəsmi Dehli nəqliyyat sahəsində İran ilə əməkdaşlıq etməkdə qərarlıdır. Hindistanın nəqliyyat naziri Nitin Kadkari M.C.Zərif ilə görüşündə bəyan etdi ki, onun ölkəsi Şimal-Cənub dəhlizinin formalaşmasında maraqlıdır və buna görə də Çabahar limanının genişlənməsində fəal iştirak edəcək.

Qeyd etmək lazımdır ki, Şimal-Cənub dəhlizinin formalaşmasında və İranın limanlarının inkişafında maraqlı olan təkcə Hindistan deyil. Avstraliyanın İrandakı səfiri Yan Biggs İranın Sənayenin İnkişafı Təşkilatının sədri Nuri Əhmədi ilə görüşündə bildirib ki, iki ölkə dəniz nəqliyyatı sahəsində yaxın əməkdaşlıq edərək idxal-ixrac əməliyyatlarını daha səmərəli şəkildə həyata keçirməlidir. Səfir Bəndər Abbas limanına səfər edərək limanın imkanları ilə tanış olub. Bu fakt onu deməyə əsas verir ki, Avstraliya nəqliyyat əlaqələrini İran ilə məhdudlaşdırmaq fikrində deyil. Avstraliya da Avropa və dünyanın digər bölgələri ilə iqtisadi əlaqələrini genişləndirmək niyyətindədir. Bunun üçün isə səfirin dediyi kimi dəniz nəqliyyatı sahəsində əməkdaşlıq zəruridir.

Bütün deyilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, dəhlizin formalaşması istiqamətində atılan addımlar Azərbaycanın qeyri-neft sektorunun inkişafına böyük təkan verəcək. Asiya dövlətlərinin Şimal-Cənub dəhlizinə yüksək maraq göstərməsi Prezident İlham Əliyevin Azərbaycanı bu beynəlxalq nəqliyyat layihəsinə cəlb etməsinin nə qədər uğurlu olduğunun göstəricisidir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan ərazisindən yüklərin Avropaya daşınması həm Rusiya, həm də Türkiyə üzərindən həyata keçirilə bilər. Bunun üçün ölkəmizdə infrastruktur tam hazır vəziyyətdədir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Asiya ölkələrinin diqqətindən yayınmayıb. Bu ölkələrin rəhbərləri bilirlər ki, yüklər Azərbaycana çatdıqdan sonra, Avropaya daşınması heç bir problem yaratmayacaq. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində reallaşdırılan islahatlar öz bəhrəsini verməkdədir. Bu islahatlara neft gəlirlərindən səmərəli istifadə etməklə nail olunub. Neft gəlirləri Bakı-Tbilisi-Qars, Bakı Beynəlxalq Ticarət Limanı, Ələt-Astara magistral yolu və yüzlərlə digər infrastruktur iqtisadi layihələr yönəldilib ki, bunlar da bu gün Azərbaycanı dünya üçün cəlbedici məkana çevirib.

ABŞ-ın Çabahar limanını iqtisadi sanksiyalardan azad etməsinə gəlincə isə Hollandiyanın Leyden Universitetinin siyasi elmlər kafedrasının İran əsilli professoru Məhəmmədbağır Fərruxun fikirlərini qeyd etmək lazımdır. Tehran Universitetində mühazirə oxuyan professor bildirib ki, ABŞ Çabaharı öz milli maraqlarına uyğun olaraq sanksiyalar siyahısından çıxarmaq məcburiyyətində qalıb. Çünki Şimal-Cənub dəhlizinin formalaşmasında mühüm amil olan Çabahar Hindistan və Rusiya ilə yanaşı, Avropa dövlətlərinin də iqtisadi maraqlarını ehtiva edir.

Rabil Kətanov

Təlim - Tədris Mərkəzi qarşıya qoyulan bütün hədəflərə nail olur

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Azərbaycan Dövlət Dəniz Akademiyasının tərkibində fəaliyyət göstərən Təlim - Tədris Mərkəzi 2018-ci il ərzində qarşıya qoyulan bütün hədəflərə nail olub.



Mərkəzdə dənizçilərin sertifikatlaşdırılması üçün təlimlərin keçirilməsi, onların təcrübi məşğələləri və qiymətləndirilməsi xidmətləri ötən il də davam etdirilib. 2018-ci ildə burada təlim keçən iştirakçıların sayı 2017-ci illə müqayisədə 15% artıb.

Ötən il TTM-də yerli dənizçilərlə yanaşı, xarici vətəndaşlar üçün də kurslar təşkil olunub. Təlimlər iştirakçıların aid olduğu ölkələrdən asılı olaraq rus və ingilis dillərində keçirilib.

Bundan başqa, sözügedən müddətdə 6 yeni kurs təlim siyahısına əlavə olunub və həmin kurslar davamlı tədris edilib.

Əvvəlki illərdə olduğu kimi, Mərkəzin əməkdaşlarının bu il də beynəlxalq təlimlərdə iştirakı təmin edilib. Nəticədə üç təlimatçı müxtəlif beynəlxalq sertifikatlar əldə edib. Bu, onlara gələcəkdə həmin təlimləri TTM-də tədris etməyə imkan verir.

Təlim Mərkəzinin 2019-cu il üçün də ciddi planları və hədəfləri var. Bu il beynəlxalq təlimlərin və xarici dildə keçirilən seminarların sayının artırılması nəzərdə tutulur.

Qeyd edək ki, Təlim - Tədris Mərkəzi ən son model trenajor və dənizçilik avadanlıqları ilə təchiz edilib. Burada müasir ixtisaslaşmış hovuz da fəaliyyət göstərir. Hovuzda yerli və xarici mütəxəssislər üçün (dənizçilər) birbaşa suda sağqalma və üzmə, qəzaya uğramış helikopterlərdən təxliyyə, növbətçi sal və qayıqlardan istifadə qaydaları kimi praktik məşğələlər keçirilir.

Təlim - Tədris Mərkəzi Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi İSO 9001:2015 standartına uyğun fəaliyyətini təşkil edib və Bureau Veritas Beynəlxalq Sertifikatlaşdırma təşkilatı tərəfindən sertifikata layiq görülüb.

Bundan başqa, Böyük Britaniyanın nüfuzlu "The Nautical İnstitute" təşkilatının nümayəndə heyətinin 2017-ci ilin 6-7 iyul tarixlərində keçirdiyi yoxlamanın nəticələrinə əsasən Təlim - Tədris Mərkəzinin Dinamik Mövqe Saxlama Simulyatoruna sertifikat verilib. Bu sertifikat "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə şərait yaradır.

BP-nin Xəzərdə yeni yataqların kəşfiyyatı üzrə iddialı proqramı var

Böyük Britaniyanın BP neft şirkəti və onun tərəfdaşları Azərbaycanda nəhəng qaz yatağının işlənməsinə 28 milyard dollar sərmayə qoyublar və bu, yalnız başlanğıcdır.

Bunu "Bloomberg"ə müsahibəsində şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bəyan edib. Onun sözlərinə görə, 2020-ci ilədək şirkət ölkəmizdə daha altı yeni kəşfiyyat quyusu qazmağı nəzərdə tutur. "Bloomberg" yazır: "Əgər onun ümidləri doğrulsa, şirkət təxminən "Şahdəniz" miqyasında yeni qaz yatağı kəşf edə bilər".

Qəri Counz əlavə edib ki, Azərbaycan Braziliya ilə yanaşı şirkətin fəaliyyətinin prioritet istiqamətlərindən biridir. "Bu kəşfiyyat proqramı bizim üçün mühümdür, çünki Xəzərdə böyük potensial görürük", -deyə BP-nin regional prezidenti vurğulayıb.

"Bloomberg" yazır ki, şirkətlər, o cümlədən BP Avropa istehlakçılarının qonşuluğunda yerləşən Avrasiya regionunda kəşf olunmamış qaz yataqlarına böyük sərmayələr qoyurlar. İyun ayında BP və tərəfdaşları, o cümlədən "LUKoil" və "Petronas" "Şahdəniz" yatağının ikinci mərhələsi üzrə hasil olunmuş qazın Xəzər dənizi və Türkiyə arasında yeni boru xətti ilə tədarükünə başlayıblar. 2020-ci ildə boru xəttinin son mərhələsi başa çatdıqdan sonra mavi yanacaq Yunanıstan, Bolqarıstan və İtaliyaya da nəql olunacaq.

Counz deyib: "Məhz bu səbəbdən bizim Xəzərdə yeni yataqların kəşfiyyatı üzrə iddialı proqramımız var. Belə olan halda, biz yüzilliyin ortalarına qədər qaz tədarükünü davam etdirə bilərik".

"Bloomberg" əlavə edir ki, "Şahdəniz" yatağının ikinci mərhələsi üzrə ildə 26 milyard kubmetr qaz hasil olunacaq ki, bu da Polşanın illik istehlakından çoxdur.

Counzun sözlərinə görə, cari ildə BP-nin qazma işləri aparacağı "Şəfəq-Asiman" qaz strukturunun ehtiyatları "Şahdəniz-2" yatağı ilə analoji ola bilər.

Xəzərin dibi ilə fiber-optik kabel magistralının çəkilişi müzakirə olunub

Azərbaycan, Əfqanıstan və Türkmənistan transmilli fiber-optik magistrallar üzrə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorundan bildirilib ki, yanvarın 10-da Bakıda Azərbaycan, Əfqanıstan və Türkmənistan rəsmiləri arasında transmilli fiber-optik magistrallar üzrə əməkdaşlıq imkanlarının müzakirə olunması məqsədilə üçtərəfli görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Əfqanıstan İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Şahzad Aryobi, həmçinin adıçəkilən ölkənin maliyyə naziri Məhəmməd Humayun Qayomi, Türkmənistanın "Aşqabat Şəhər Telefon Şəbəkəsi" QSC-nin baş direktoru Yusup Kerimov, "Türkməntelekom" şirkətinin baş direktor müavini Durdelı Atayev və Əfqanıstan İslam Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenay iştirak ediblər.

Üçtərəfli görüş zamanı Azərbaycan Respublikası və Türkmənistan arasında Xəzər dənizinin dibi ilə "Siyəzən-Türkmənbaşı" fiber-optik kabel magistralının çəkilməsi, o cümlədən Türkmənistan ərazisi ilə Əfqanıstanın internetlə təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb, bununla bağlı texniki-iqtisadi əsaslandırma işlərinin həyata keçirilməsi məqsədilə üç ölkənin mütəxəssislərinin iştirakı ilə birgə işçi qrupun yaradılması qərara alınıb.

"Çıraq" platforması ötən il 98 faizdən çox səmərəliliklə işləyib

BP şirkətindən verilən məlumata görə, "Azəri-Çıraq-Günəşli" (AÇG) platformalarının ən yaşlısı olan "Çıraq" platforması 2018-ci ildə 98 faizdən çox səmərəliliklə işləyib".

Qeyd edək ki, 1997-ci ildə "Çıraq"-dan ilk quyunun qazılmasına başlanılıb. Həmin il noyabrın 12-də isə "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından neft hasil edilib.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan ümumi neft hasilatı 3,5 milyard barrelə çatıb. Ötən ilin yanvar-sentyabr aylarında isə AÇG yataqlar blokundan hasilat 161 milyon barrel, yəni 22 milyon ton təşkil edib. Hesabat dövründə blokdan stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat – "Çıraq" (47 min), "Mərkəzi Azəri" (156 min), "Qərbi Azəri" (126 min), "Şərqi Azəri" (97 min), "Dərinsulu Günəşli" (105 min) və "Qərbi Çıraq" (57 min) platformalarından birlikdə gündəlik orta hesabla 588 min barrel olub.

Sentyabr ayının sonuna AÇG-də ümumilikdə 112 neft hasilat quyusu, 53 qaz və su injektor quyusu istismarda olub. Keçən ilin üç rüb ərzində blokda 5 neft hasilat quyusu və 3 su injektor quyusu qazılıb. Doqquz ayda AÇG layihəsinə təqribən 367 milyon dollar əməliyyat və 825 milyon dollar isə əsaslı məsrəflər xərclənib.

AÇG-də tərəfdaşların iştirak payları bu nisbətdədir: BP - 30,37 faiz, "AzAÇG" (SOCAR) - 25 faiz, "Chevron"- 9,57 faiz, "Inpex" - 9,31 faiz, "Equinor" - 7,27 faiz, "ExxonMobil" - 6,79 faiz, "TPAO" - 5,73 faiz, "Itochu" - 3,65 faiz və "ONGC Videsh Limited" (OVL) - 2,31 faiz.

Xatırladaq ki, ötən il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaşlar şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi imzalayıblar. Saziş Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən oktyabrın 31-də ratifikasiya olunub.

AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı fevralın 20-də keçiriləcək

Fevralın 20-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçiriləcək.

Bu barədə energetika nazirinin müşaviri – mətbuat katibi Zəminə Əliyeva məlumat verib.

Qeyd edək ki, toplantıda "Cənub Qaz Dəhlizi" layihəsinə cəlb edilmiş dövlətlərin, eləcə də digər ölkələrin nümayəndələri, layihənin səhmdarlarının və beynəlxalq maliyyə qurumlarının təmsilçilərinin iştirakı nəzərdə tutulur.

Xatırladaq ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı 2017-ci il fevralın 23-də, dördüncü toplantı isə keçən il fevralın 15-də keçirilib.

Cənub Qaz Dəhlizi dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizinin seqmentlərini "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. Cənub Qaz Dəhlizi dünya neft-qaz sənayesində bu vaxtadək olan ən mühüm və iddialı layihələrdən biridir. Bu, çox sayda müxtəlif maraqlı tərəfləri, o cümlədən 7 hökuməti və 11 şirkəti özündə əhatə edən mürəkkəb bir hədəfdir. Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək. Bu boru kəməri sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər.

Ötən il mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vurulub. İyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Bu boru kəmərləri zənciri Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunan təbii qazı Türkiyəyə və həmin ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizi vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli planlaşdırılır.

TANAP-la Türkiyəyə 2019-cu ildə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazı nəql ediləcək. Boru kəməri bu ilin birinci yarısında TAP qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. TANAP inşası üzrə işlərin təxminən 98 faizi icra olunub. TAP inşası üzrə isə işlərin 82 faizdən çoxu tamamlanıb.

Yeddi ölkənin iştirakı ilə Şərqi Aralıq dənizi Qaz Forumu yaradılıb

Aralıq dənizi sahillərində yerləşən 7 ölkə Şərqi Aralıq dənizi Qaz Forumunun (DAGF) təsis olunması barədə qərar qəbul edib.

Bu barədə Misirin Neft və Mineral Ehtiyatlar Nazirliyi məlumat yayıb.

Bildirilir ki, Şərqi Aralıq dənizi bölgəsində təbii qaz istehsalı, istehlakı və tranzit ölkələri bir araya gətirən DAGF Qahirədə təsis olunub. Belə ki, Kipr, Yunanıstan, İsrail, İtaliya, İordaniya, Fələstin və Misirin enerji nazirləri DAGF-ın yaradılması üçün Qahirədə toplaşıb. Həmin ölkələrin nazirləri regionda qaz potensialının səmərəli istifadəsi üçün texniki və iqtisadi sahələrdə birgə əməkdaşlığın qurulması üçün razılaşıb. Qaz Forumunun əsas məqsədi tələb və təklifi təmin etməklə üzv ölkələrin mənafelərinə uyğun regional qaz bazarının yaradılmasıdır.

DAGF-ın mənzil qərargahı Qahirədə yerləşəcək və üzv ölkələrin nazirləri forumun strukturuna dair məsələləri müzakirə etmək üçün aprel ayında yenidən görüşəcək.

Səudiyyə Ərəbistanı Pakistanda nəhəng neft emalı zavodu tikəcək

Səudiyyə Ərəbistanının neft və energetika naziri Xalid Əbdüləziz Al Falih deyib ki, onun ölkəsi Pakistanın strateji cənub-qərb liman şəhəri olan Qvadarda 10 milyard dollar dəyərində neft emalı zavodu tikəcək.

"Reuters" agentliyi xəbər verir ki, neft emalı zavodunun tikilməsi ilə bağlı saziş Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd Bin Salmanın fevral ayında İslamabada səfəri zamanı imzalanacaq. Bundan əvvəl isə Xalid Əbdüləziz Al Falih bölgəyə gələrək zavodun tikiləcəyi yerlə əlaqədar araşdırmalar aparıb. Pakistanın neft naziri Qulam Sərvər Xan və dənizçilik naziri Əli Zəidi onu müşayiət ediblər.

Pakistanın neft naziri bildirib ki, Səudiyyə Ərəbistanın yeni layihəsi onun Çin-Pakistan İqtisadi Dəhlizinə qoşulmasına kömək edəcək. İslamabad ötən ilin sentyabrında müvafiq təkliflə Ər-Riyada müraciət etmişdi.

"Nobellərin qənimi"

Rusiya Federasiyasının Həştərxan vilayətində Assadulayevo qəsəbəsinin adının mənşəyi Əsədullayev familiyası ilə bağlıdır. Bu qəsəbənin azərbaycanlı adı daşımasının tarixçəsi haqqında məqalə "Vestnik Kavkaza" saytında yerləşdirilib.



Məqalədə Rusiyada görkəmli azərbaycanlıların adlarının əziz tutulduğu qeyd olunur: burada Müslüm Maqomayev adına vokalçıların beynəlxalq müsabiqəsi keçirilir, Volqoqradda Heydər Əliyevin adını daşıyan Rusiya Azərbaycan Dostluq Parkı var, Surqut aeroportuna sovet geoloqu, geologiya-mineralogiya elmləri doktoru, Sibirdə ilk nefti kəşf edən Fərman Salmanovun adı verilib, Həştərxan vilayətinin Privoljsk rayonunda isə azərbaycanlı neft maqnatı və xeyriyyəçi Şəmsi Əsədullayevin şərəfinə adlanan Assadulayevo qəsəbəsi qalır.

Neft sənayesində fəaliyyətinə arabaçılıqdan başlayan Şəmsi Əsədullayev Azərbaycan və rus sənayeçiləri arasında ilk dəfə özünün tanker donanmasını yaradıb və yalnız bundan sonra nefti tankerlərə göndərməyə başlayıblar. O, həmçinin neft kəmərləri də çəkdirib ki, bu sahədə Nobel qardaşları ilə eyni səviyyədə olduğu üçün onu "Nobellərin qənimi" də adlandırıblar. Məşhur neft nəhənglərinin hər hansı yerdə - Rusiya, Türküstan, İran və hətta Finlandiyada kontor və şöbələri açılırdısa, onların yanında mütləq Şəmsi Əsədullayevin kontoru yaradılırdı və o, İsveç firmasının müştərilərini ələ keçirərək nefti daha ucuz qiymətə satırdı. Əsədullayev bu yolla Azərbaycanın ən varlı adamlarından birinə çevrilib və xeyriyyəçiliklə məşğul olmağa başlayıb. Onun tərəfindən Bakı Real Məktəbinin (hazırkı Azərbaycan Dövlət İqtisad Universiteti) binasının tikintisinə böyük məbləğdə pul ayrılıb. Heç bir təhsili olmayan Əsədullayev Cənubi Qafqazda ən böyük Tiflisdəki Aleksandrov Müəllimlər İnstitutuna himayədarlığı öhdəsinə götürüb və öz adına iki təqaüd təsis edib. O, bununla müsəlman tələbələrə ayrılan yerlərin artırılmasına nail olub. Əsədullayev öz vəsaiti hesabına Kaluqada kilsə tikdirib, Moskvadakı malikanələrinin birini isə Vozdvijenkada müsəlman icmasına bağışlayıb. Bu evdə müsəlman uşaqları üçün məktəb açılır, xeyriyyəçinin vəfatından sonra isə, 1917-ci ildə burada Ümumrusiya Müsəlmanlarının Qurultayı keçirilir.

Azərbaycanlı xeyriyyəçi neft maqnatını Həştərxanda da yaxşı tanıyırlar. Tədqiqatçı Eldar İdrisovun məlumatına görə, XIX əsrdə onun adını daşıyan qəsəbənin yerində neft məhsullarının Bakıdan Həştərxana çatdırıldığı "Qafqaz və Merkuri" cəmiyyətinə məxsus neft bazası yerləşib. Mansur adasında yerləşən qəsəbənin özü 1918-ci ilədək Həştərxan əkinçilik və dövlət əmlakı İdarəsinin sahibkarlara icarəyə verdiyi torpaq sahəsi olub. İnqilaba qədər Assadulayevo yaşayış məntəqəsi olmayıb, lakin Mansur adasında Şəmsi Əsədullayevin neft limanı mövcud olub. Müasir qəsəbənin ərazisində mazut zavodu, neft anbarı, ehtiyat parklar, liman, neftboşaltma donanmasının olduğu "Mazut" cəmiyyəti yerləşib. Nefti taxta, sonra metal barjlarla daşıyırdılar.

Fəhlələri Həştərxandan gətirmək iqtisadi cəhətdən sərfəli deyildi və burada daimi yaşayış üçün evlər tikmək qərara alınıb. Fəhlələrin ailələri ilə birlikdə yaşaya biləcəyi evlər kazarma tipində inşa olunub. Oktyabr inqilabından sonra bütün limanlar, anbarlar və gəmilər milliləşdirilib, 1918-ci ildən isə Assadulayevo qəsəbəsi xəritəyə əlavə edilib. 1985-ci ilədək bu qəsəbə sürətlə inkişaf edib, lakin sonra neft bazasını bağlayıblar. Əsədullayevin xatirəsi isə yalnız qəsəbənin adında qalıb. Lakin tədqiqatçının qənaətinə görə, indi bu Volqaboyu vadisi insanların dostluğunun təcəssümünə çevrilib və qəsəbənin adının "şanlı igidlər – Tanrı şirlərinin məkanı" kimi tərcümə olunması da təsadüfi deyil.

Ölkədəki müəssisə və təşkilatların sayı 130 min 323-ə çatıb

Ötən il ərzində müəssisə və təşkilatların sayı 9,9 faiz artaraq bu il yanvarın 1-i vəziyyətinə 130 min 323 olub.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, reyestrdə qeydiyyatdan keçmiş statistik vahidlərdən tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (30 faiz), İran (9,3 faiz), Böyük Britaniya (6,8 faiz), Rusiya (6,8 faiz), ABŞ (2,7 faiz) və Almaniya (1,8 faiz) ölkələrinin sahibkarları tərəfindən yaradılıb.

2018-ci ildə yeni yaradılmış müəssisə və təşkilatların 98,9 faizi xüsusi mülkiyyətli (o cümlədən 10,9 faizi tam xarici investisiyalı, 2,1 faizi birgə mülkiyyətli), 1,1 faizi isə dövlət mülkiyyətli müəssisələrin payına düşür.



Qeydiyyatda olan müəssisə və təşkilatların 55,5 faizi Bakıda yerləşir. Hesabat dövründə yeni yaradılmış müəssisə və təşkilatların 66,4 faizi paytaxtda, 9,6 faizi Abşeron, 6,9 faizi Aran, 4,8 faizi Quba-Xaçmaz, 4,6 faizi Gəncə-Qazax və 2,7 faizi Şəki-Zaqatala, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyata alınıb.

İl ərzində Bakı şəhəri üzrə 409, Aran iqtisadi rayonu üzrə 67, Abşeron iqtisadi rayonu üzrə 43, Gəncə-Qazax iqtisadi rayonu üzrə 36, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 21, Naxçıvan Muxtar Respublikası üzrə 15, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonlarının hər biri üzrə 10, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 7, Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 5, Lənkəran iqtisadi rayonu üzrə isə 4 müəssisə ləğv edilib.

Cari il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 82,3 faizini kiçik müəssisələr təşkil edib və onların əsas hissəsi ticarət (30,7 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (16,8 faiz), tikinti (10,9 faiz) və kənd təsərrüfatı (9,1 faiz) sahələrində yaradılıb. Kiçik müəssisələrin 58,4 faizi Bakıda, 12,1 faizi Aran, 7,7 faizi Abşeron, 5,5 faizi Gəncə-Qazax, 5,4 faizi Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb.

Azərbaycan əhalisinin sayı 9,97 milyonu ötüb

Ölkə əhalisinin sayı 2018-ci ilin əvvəlindən 76 min 493 nəfər artaraq dekabrın 1-nə 9 milyon 974 min 578 nəfərə çatıb. Bir kvadratkilometrə düşən əhalinin sayı 115 nəfər olub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi əhalinin 52,9 faizini şəhər, 47,1 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Ötən ilin yanvar-noyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 127 min 681 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 14,2 təşkil edib. Körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarıdır. Doğulan körpələrdən əkizlərin sayı 2462, üçəmlərin sayı isə 108 olub.

On bir ay ərzində ölkədə 52 min 733 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,8 təşkil edib.

Qeydiyyat şöbələri tərəfindən keçən ilin yanvar-noyabr aylarında 56 min 888 nikah və 13 min 655 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,3, boşanmaların sayı isə 1,5 olub.

Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən ötən ilin yanvar-noyabr ayları ərzində daimi yaşamaq üçün Azərbaycana 3103 nəfər gələn, Azərbaycandan isə 1558 nəfər gedən qeydə alınıb, ölkə üzrə miqrasiya saldosu müsbət 1545 nəfər təşkil edib.

"Güzəştli mənzil" sistemindəki yeniliklər mayın 1-dən tətbiq ediləcək

Güzəştli mənziləri əldə etmək daha rahat olacaq.

Mənzil İnşaatı Dövlət Agentliyindən (MİDA) bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda dəyişikliklər edilib. Yeniliklərdən biri "Güzəştli mənzil" sistemində elektron kabinet verilmiş şəxsin agent banka müraciət edərək ilkin razılıq qərarını almasıdır. Bu dəyişiklik vətəndaşlara agent banklar tərəfindən veriləcək kreditin məbləğini və müddətini öncədən müəyyən edərək mənzil seçimini, onun əldə edilməsini rahatlaşdıracaq.

Daha bir yenilik mənzillərin satışı müddətində mənzil seçimi edə bilməyən şəxslərə mənzil əldə etmək imkanının yaradılmasıdır. Belə ki, "Güzəştli mənzil" sistemində seçilmiş bir mənzil həmin elan çərçivəsində daha iki şəxs tərəfindən də ardıcıl olaraq gözləmə qaydasında seçilə bilər. Yəni, əgər hər hansı bir səbəbdən mənzil onu seçmiş şəxs tərəfindən əldə edilmədikdə, ilk olaraq gözləmə qaydasında həmin mənzil birinci sırada seçmiş şəxsə təklif ediləcək. Eyni qaydada, əgər mənzil hər hansı bir səbəbdən birinci sırada seçmiş şəxs tərəfindən də əldə edilməsə, həmin mənzil gözləmə qaydasında ikinci sırada seçmiş şəxsə təklif olunacaq.

Digər bir yenilik MİDA tərəfindən mənzillərin satış qiymətinə tətbiq edilən əlavə endirimlərdən yararlanmaq istəyən vətəndaşlar üçündür. Bu yeniliyə əsasən mənziləri öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək almaq istəyən şəxslər üçün satış elanı veriləcək.

"Güzəştli mənzil" sistemində olan bu yeniliklər 2019-cu il mayın 1-dən etibarən tətbiq ediləcək.

ABŞ-ın Hərbi Dəniz Qüvvələrinə məxsus gəmi Batumi limanına gəlib

ABŞ-ın Hərbi Dəniz Qüvvələrinə məxsus mina və raket daşıyan 4-cü nəsil silahlanmaya məxsus "Donald Kuk" (Donald Cook DDG-75) hərbi gəmisi yanvarın 21-də Gürcüstanın Batumi limanına daxil olub.

Batumi limanında gəminin təntənəli qarşılanma mərasimi olub. Mərasimdə Acarıstan Muxtar Respublikası hökumətinin, Gürcüstan Sahil Mühafizə Xidmətinin rəsmi şəxsləri iştirak ediblər.

Donald Kuk (DDG-75) hərbi gəmisinin əsas silahı 2500 kilometr uçuş qabiliyyətli, nüvə başlığı daşıya bilən qanadlı raketlərdir. Döyüş qabiliyyətindən və vəziyyətdən asılı olaraq gəmiyə 56 və ya 96 belə raket yerləşdirmək mümkündür.

Qara dənizdə təhlükəsizliyin müdafiəsi məqsədilə Gürcüstana gələn gəmi, həmçinin taktiki döyüş raketləri, artilleriya qurğuları ilə də təmin olunub.

"Donald Kuk" gəmisi Gürcüstanın Sahil Mühafizə Xidməti ilə birlikdə hərbi təlimlərdə iştirak edəcək.

Məlumat üçün qeyd edək ki, 2018-ci ildə Qara dənizdə ABŞ-ın "USS Ross", "USS Carney" və "USS Porter" raket daşıyan gəmiləri, "USS Mount Whitney" flaqman gəmisi və "USS Oak Hill" desant gəmisi təlimlərdə iştirak ediblər.

Xətayi Əzizov

26 milyarderin sərvəti 3,8 milyard insanın gəlirindən çoxdur

"Oxfam International" təşkilatının hesabatında deyilir ki, dünyada 26 milyarderin 1,4 trilyon dollarlıq sərvəti 3,8 milyard insanın gəlirindən çoxdur. Qlobal maliyyə böhranı dövründə isə milyardçıların sərvətinə hər gün 2,5 milyard dollar əlavə olunub.

Dünyada ciddi iqtisadi və sosial problemlərə səbəb olan qlobal maliyyə böhranı dövründə milyarderlərin sayı iki dəfə artaraq 2,208 nəfərə çatıb. Hesabat müəllifləri bildirirlər ki, onların əsas məqsədi Davos İqtisadi Forumu ərəfəsində dünyanın diqqətini yoxsulluğun artmasına yönəltməkdir.

Hesabata görə, dünyanın ən varlı adamları siyahısına başçılıq edən "Amazon"un sahibi Ceff Bezos, "Microsoft"un yaradıcısı Bill Qeyts, habelə Uorren Baffet və Mark Zukkerberqin əllərində 357 milyard dollar kapital toplaşıb. "Oxfam International"ın hesabatında hökumətlərə tövsiyə olunur ki, yoxsulluğun səviyyəsinin azaldılması üçün bu və digər milyarderlərə tətbiq olunan vergiləri daha da artırsınlar.

Təşkilatın vitse-prezidenti Pol O"Brayn və bir sıra amerikalı konqresmenlər milyarderlərdən alınan vergilərin hətta 70 faizə qaldırılmasını təklif edirlər.

Liviya sahillərində gəminin qəzaya uğraması nəticəsində 117 miqrant itkin düşüb

Aralıq dənizinin Liviya sahillərində miqrantları daşıyan gəminin qəzaya uğraması nəticəsində 117 nəfər itkin düşüb.

"RİA Novosti" agentliyinin verdiyi xəbərə görə, xilasedicilər 3 nəfəri xilas edə biliblər. Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi Flavio di Cakomo bildirib ki, itkin düşənlər arasında 10 qadın və 2 uşaq da var.

Miqrantlardan çoxu Qərbi Afrikadandır. Sağ qalanların sözlərinə görə, 40 nəfər Sudan vətəndaşıdır.

İcbari tibbi sığorta bütün ölkə ərazisində tətbiq ediləcək

Gələn ildən bütün ölkə üzrə yeni bir sosial layihə olan icbari tibbi sığorta tətbiq ediləcək. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə və əlçatanlığa xidmət edən bu sistemə keçid üçün hazırlıq işləri davam edir. Dövlətimizin başçısının "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs - TƏBİB-in yaradılması haqqında imzaladığı Fərman və Milli Məclisdə "Tibbi sığorta haqqında" Qanuna edilən dəyişikliklər isə artıq hədəfləri konkretləşdirib.

Gələn ildən etibarən ölkədə yeni bir qurum - TƏBİB fəaliyyətə başlayacaq. Məhz TƏBİB 2020-ci ildə tətbiqi nəzərdə tutulan icbari tibbi sığorta sisteminə keçidi təmin etməlidir. Qurumun əsas məqsədi səhiyyədə mövcud olan maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla təkmilləşdirməkdir. Qanuna əsasən icbari tibbi sığorta sistemi çərçivəsində xidmətlər zərfi iki hissədən - baza və əlavə hissədən ibarət olacaq. Xidmətlər zərfinin baza hissəsinə ilkin səhiyyə xidməti, təcili və təxirəsalınmaz tibbi yardım xidməti, əlavə hissəsinə isə ixtisaslaşdırılmış tibbi yardım aiddir. Pulsuz olacaq xidmətlər zərfinin baza hissəsindən Azərbaycan vətəndaşlarından başqa ölkədə daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də istifadə edə biləcəklər. Baza hissəsi üzrə hər il adambaşına 29 manat dövlət büdcəsi hesabına ödəniləcək. Xidmətlər zərfinin əlavə hissəsinə aid olan ixtisaslaşdırılmış tibbi yardımdan istifadə etmək üçün isə icbari tibbi sığorta haqqı ödənilməlidir. Bu haqq işəgötürən tərəfindən hesablanmış əməyin ödənişi fondunun aylıq 2 faizi, sığortaolunan tərəfindən – işçinin əməkhaqqının aylıq 2 faizi qədər müəyyən edilir. İxtisaslaşmış tibbi yardım haqqını ödəməkdən azad edilən şəxslər, yəni işləməyənlər üçün xidmətlər zərfinin əlavə hissəsi illik 120 manat məbləğində olacaq.

Bundan başqa, icbari tibbi sığorta sisteminin tətbiqi dövlət büdcəsindən ayırmalar, istehsal və xidmətlərdən əldə edilən daxilolmalar, ianələr, qrantlar və digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçiriləcək. Hazırda icbari tibbi sığorta sisteminin məlumat bazasının yaradılması və bütün ölkə üzrə dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin həmin məlumat bazasına inteqrasiyası, TƏBİB-in tabeliyinə verilmiş müəssisələrdə gəlirlərin və xərclərin uçotu da daxil olmaqla onların idarə edilməsini təmin edəcək proqram təminatı hazırlanır.

Qeyd edək ki, icbari tibbi sığorta sistemi artıq iki ildir pilot rayonlar üzrə həyata keçirilir. Nəticələrə əsasən, layihənin əhatə etdiyi ərazilərdə əməliyyatların sayı 52 faizdən çox artıb. Cərrahi müdaxilələr sırasında ürək əməliyyatları üstünlük təşkil edib.

İcbari tibbi sığorta sisteminin tətbiqindən pilot rayonların həkimləri də razıdırlar. Bu ərazilərdə həkimlərin və tibb işçilərinin əməkhaqlarındakı yüksəlişlərdən sonra onlar arasında məvacibləri 5-6 min manatdan çox olanların da sayı artıb.

Tanzaniya bayrağı altında üzən iki gəmidə yanğın olub

Kerç boğazında Tanzaniya bayrağı altında üzən iki gəmidə yanğın olub.

Gəmilərin heyəti İran və Türkiyə vətəndaşlarından ibarətdir.

Rusiya Dəniz və Çay Nəqliyyatı Federal Agentliyinin məlumatına görə, gəmilərdən birində partlayış baş verib. Hadisə nəticəsində azı 14 dənizçi həlak olub, daha 17 nəfər isə xilas edilib.



Yanğın bir gəmidən digərinə yanacaq ötürülməsi zamanı baş verib.

Novorossiysk Xilasetmə-Əlaqələndirmə Mərkəzinin məlumatına əsasən xilasetmə işlərinə 10 gəmi cəlb edilib.

Fəridə Abdullayeva

Nobel mükafatı alan bakılı alim

Dünya şöhrətli fizik, Nobel mükafatı laureatı, bakılı Lev Davidoviç Landaunun anadan olmasından 111 il keçir.

Yanvarın 22-si Lev Landaunun doğum günü idi. O, 1908-ci ildə Bakının Balaxanı qəsəbəsində neft mühəndisi ailəsində dünyaya gəlib. 1916-cı ildə Bakıda gimnaziyaya qəbul olunub və 12 yaşında buranı əla qiymətlərlə başa vurub. Onun ali məktəbdə oxuması üçün hələ çox gənc olduğunu nəzərə alaraq valideynləri gələcək fizikin iki il Bakı İqtisadiyyat Texnikumunda oxuması barədə qərar qəbul edirlər. 1922-ci ildə 14 yaşlı L.Landau müvəffəqiyyətlə Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) qəbul imtahanları verir və eyni vaxtda iki fakültədə — fizika-riyaziyyat və kimya fakültələrində təhsil alır. Kimya elmi gənc Landaunu çox maraqlandırıb. Lakin birinci semestrdən sonra o yəqin edir ki, fizika və riyaziyyat daha maraqlı və ürəyincədir.

L.Landau ilk elmi çıxışlarına məhz Azərbaycan Dövlət Universitetində (ADU) başlayıb. Əla oxuması və imtahanlarda olduqca yüksək nəticələr göstərməsi bu gənci universitetdə məşhurlaşdırıb və ona diqqəti artırıb. Məhz Bakıda aldığı təhsil L.Landaunun gələcək elmi axtarışlarının və nailiyyətlərinin, nəzəri fizikaya gətirdiyi fundamental və klassik yeniliklərin, ümumiyyətlə, fizika elmində yaratdığı yeni üslubun və nəzəri fizika sahəsində yaratdığı böyük məktəbin əsası olub. L.Landau çox gənc olmasına baxmayaraq, nəzəri fizika üzrə gələcək dahi alim kimi keçmiş SSRİ-nin elm mərkəzi sayılan Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə yola salınıb. 1924-cü ildə 16 yaşlı L.Landau Leninqrad Dövlət Universitetinin (LDU) fizika-riyaziyyat fakültəsinə köçürülüb.



1926-cı ildə L.Landaunun "İkiatomlu molekulların spektrləri nəzəriyyəsi" adlı ilk elmi əsəri çap olunub. Bu elmi işi onu daha da məşhurlaşdırıb. L.Landau 1927-ci ildə LDU-da təhsilini başa vurub. Leninqrad Fizika-Texnika İnstitutunun aspiranturasında təhsilini davam etdirən gənc 21 yaşında elmlər doktoru dərəcəsini alıb. 1929-cu ildə L.Landau ilk dəfə Avropaya getmək imkanı əldə edib. Almaniyada qısa müddətdə qaldıqdan sonra Kopenhagenə yollanıb və burada Nils Borun Nəzəri Fizika İnstitutunda çalışıb. L.Landau həmişə özünü N.Borun tələbəsi hesab edib və onun fizikaya olan münasibətində bu alimin misilsiz rolunun olduğunu qeyd edib. Kopenhagendən sonra o, SSRİ-yə qayıdıb. 1932-1937-ci illərdə L.Landau Xarkov Mexanika və Maşınqayırma İnstitutunun nəzəri fizika kafedrasına rəhbərlik edib.1936-1937-ci illərdə L.Landau "Fazaların ikinci növ dəyişmələri" nəzəriyyəsini və "Yüksəkkeçiricilərin aralıq vəziyyəti" nəzəriyyəsini yaradıb, bu problemlərə həsr olunmuş elmi məqalələrlə çıxışlar edib. Həmin dövrdə L.Landau artıq dünyada məşhur nəzəriyyəçi fizik kimi tanınıb. 1937-ci ilin fevralında Moskva Fiziki Problemlər İnstitutuna dəvət olunub və həmin institutda nəzəriyyə şöbəsinə rəhbərlik edib.

Elmi nailiyyətlərindən başqa L.Landau, eyni zamanda, keçmiş SSRİ-də nəzəri fizika elminin aparıcı Landau məktəbinin əsasını qoyub. Onun yaratdığı bu məktəb sovet elminə Lev Pitayevski, Aleksey Abrikosov, Arkadi Levanyuk, Yevgeni Lifşitz, Lev Qorkov, İsak Xalatnikov və Boris Yoffe kimi fiziklər bəxş edib.

1962-ci il yanvarın 7-də L.Landau avtomobil qəzasına uğrayıb. Bu qəzadan ciddi xəsarət alan alim üç ay komada yatıb. 1962-ci ilin noyabrında L.Landau ona Nobel mükafatı verilməsi barədə teleqram alıb. Nobel Komitəsinin tarixində ilk dəfə xüsusi hal kimi məşhur fizik L.Landaunun Stokholma gedə bilməməsi nəzərə alınıb və İsveçin Moskvada olan səfiri Nobel mükafatını xəstəxanada ona təqdim edib. O, bir daha əvvəlki fəaliyyətinə qayıda bilməyib. Dahi fizik 1968-ci il aprelin 1-də Moskva şəhərində vəfat edib.

Üzən günəş panelləri sistemi ilə bağlı pilot layihənin icrasına dair müzakirələr aparılıb

Energetika Nazirliyində Asiya İnkişaf Bankı (AİB), məsləhətçi şirkət və bir sıra dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi üzrə işçi qrupunun ilk iclası keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Energetika Nazirliyinin aparat rəhbəri Zaur Məmmədov üzən günəş paneli ilə bağlı ölkədə ilk dəfə həyata keçirilən bu layihəni AİB ilə əməkdaşlığın uğuru kimi qiymətləndirib. Layihə çərçivəsində Böyükşor gölündə 100 kilovata qədər gücə malik fotovoltaik sistemin quraşdırılacağı və bu layihənin 2020-ci ildə başa çatdırılmasının planlaşdırıldığını qeyd edib.

Tədbirdə pilot layihə üzrə AİB tərəfindən təqdim edilmiş "Yaddaş Qeydi" barədə məlumat verilib. Məsləhətçi şirkət tərəfindən layihənin icrası ilə bağlı ilkin hesabatın hazırlanaraq təsdiq edildiyi, layihənin ətraf mühitə təsirlərinin öyrənilməsi məqsədilə qiymətləndirmələr aparıldığı diqqətə çatdırılıb. Bildirilib ki, AİB ilə "Azərişıq" ASC arasında 35 kilovoltluq "Koroğlu" yarımstansiyasına qoşulma imkanları müzakirə edilib və bu məqsədlə texniki şərtin alınması üçün müvafiq prosedurlara başlanılacaq. Bundan başqa, layihənin ikinci komponenti kimi tarif və siyasətin qiymətləndirilməsi çərçivəsində "Azərenerji" ASC tərəfindən proqnozlaşdırılan elektrik enerjisi istehsalı gücü və tələbatı ilə bağlı məlumatların AİB-ə təqdim edilməsinin vacibliyi qeyd olunub.

İclasda pilot layihə ilə əlaqədar zəruri hidrometeoroloji məlumatların əldə edilməsi, mülkiyyətə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Layihənin reallaşmasına təsir edə biləcək texniki məsələlərlə bağlı ekspertlər səviyyəsində görüşlərin keçirilməsi tövsiyə edilib.

Su hövzələrinə 380 milyona yaxın müxtəlif növ balıq körpəsi buraxılıb

Ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti su bioresurslarının artırılması, bərpası, istifadəsinin tənzimlənməsi və mühafizəsi sahəsində tədbirləri davam etdirib. Xəzər dənizində və daxili su hövzələrində vətəgə əhəmiyyətli qiymətli balıq növlərinin sayının bərpası məqsədilə nazirliyin balıqartırma müəssisələri tərəfindən 376,8 milyon müxtəlif növ balıq körpəsi respublikanın müəyyən edilmiş su hövzələrinə buraxılıb.

Bu barədə nazirliyin su hövzələrində bioresursların artırılması sektorunun müdiri Fəridə Ələkbərova məlumat verib.

Sektor müdiri bildirib ki, balıq körpələrinin 52,11 milyonu süni üsulla, 324,69 milyonu isə təbii kürüləmə yolu ilə artırılıb.

Trans-Avropa nəqliyyat şəbəkəsinin inkişafı üzrə fəaliyyət planı hazırlanıb

AZƏRTAC xəbər verir ki, plana əsasən 4800 kilometr uzunluğunda avtomobil və dəmir yollarının, limanların, logistika mərkəzlərinin inşası nəzərdə tutulub. 2030-cu ilə kimi "Şərq Tərəfdaşlığı" ölkələrində - Azərbaycan, Ukrayna, Gürcüstan, Moldova, Belarus və Ermənistanda təxminən 13 milyard avro dəyərində 100 layihə həyata keçiriləcək.

Avropa Komissiyası və Dünya Bankı "Şərq Tərəfdaşlığı" ölkələrində infrastrukturun inkişafı üzrə plan hazırlayıb.

Asiman Əsədov

İndoneziyanın hakimiyyət orqanları Yava dənizində itən gəmini axtarır

İndoneziyanın hakimiyyət orqanları Yava dənizində itən gəminin axtarışlarını davam etdirir.

"Teh Jakarta Post" qəzeti xəbər verir ki, palma yağı ilə yüklənmiş "Namse Bangdzod" adlı gəmi dekabrın 27-də Sampit limanından çıxaraq Kalimantan adasına yola düşüb.

Göyərtəsində 12 dənizçinin olduğu gəmi ilə əlaqə Cakarta yaxınlığındakı Karavanq limanının yanından keçərkən kəsilib. Yanvarın 7-də gəminin itdiyi barədə elan verilib.

Hazırda gəminin axtarışı ilə İndoneziya Fövqəladə Hallarla Mübarizə Agentliyi (Basarnas) məşğuldur. Karavanq polisi isə yerli balıqçıları axtarışlara yardım etməyə çağırıb.

Tokio Yaponiyaya məxsus balıqçı gəmilərinin cərimə olunmasına görə Moskvaya etirazını bildirib

Yaponiya Xarici İşlər Nazirliyi Rusiya FTB-nin sərhəd xidməti Cənubi Kuril adaları yaxınlığında müvafiq icazə sənədləri olmadan balıqçılıqla məşğul olan Yaponiyaya məxsus iki gəmini cərimələdiyinə görə Rusiyaya tərəfinə etirazını bildirib.

Bu barədə Kyodo agentliyi məlumat yayıb. Yaponiya XİN-in etiraz məktubundan sitat gətirən agentlik yazır: "Rusiya tərəfinin hərəkəti qətiyyən qəbuledilməzdir".

Agentlik qeyd edir ki, yanvarın 7-də Rusiya sərhədçiləri Kuril adaları yaxınlığında balıq ovlayan iki yapon gəmisini sənədləri yoxlamaq üçün saxlayıblar. Balıqçılara ov üçün lazım olan bütün sənədlərin olmadığını bildirən sərhədçilər onlardan yerində cərimə ödəməyi tələb ediblər. Cərimənin məbləği barədə məlumat verilmir.

Vüqar Ağayev

Batmaqda olan qayıqdan 40 qaçqının həyatı xilas edilib

Türkiyənin Sahil Təhlükəsizlik Qüvvələri Kuş adası yaxınlığında batmaqda olan qayıqdan 40 qaçqının həyatını xilas edib.

Qayıqda 4 yaşlı uşağın meyiti tapılıb. Xilas edilən qaçqınlar müayinə və tibbi yardım üçün Kuş adası dövlət xəstəxanasına yerləşdirilib-lər. Bölgədə axtarış-xilasetmə işləri davam etdirilib.

Sabir Şahtaxtı

Kiçik həcmli gəmilərə texniki baxış keçiriləcək

Fövqəladə Hallar Nazirliyi kiçik həcmli gəmilərin istifadəçilərinə müraciət edib.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, müraciətdə FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətində il ərzində kiçikhəcmli gəmilərə texniki baxış keçiriləcəyi qeyd olunub. Bildirilib ki, texniki baxış aşağıdakı cədvələ uyğun keçiriləcək:

SIRA №	TEXNİKİ BAXIŞIN KEÇİRİLƏCƏYİ ŞƏHƏR VƏ RAYONLAR	TEXNİKİ BAXIŞIN KEÇİRİLMƏ VAXTI
1	XAÇMAZ, ŞABRAN, SİYƏZƏN, XIZI	11-21 FEVRAL
2	ASTARA, LƏNKƏRAN, MASALLI	1-11 APREL
3	SALYAN, NEFTÇALA, ŞİRVAN	22-30 APREL
4	MİNGƏÇEVİR VƏ DİGƏR DAXİLİ SU HÖVZƏLƏRİ	16-26 SENTYABR
5	**BAKI ŞƏHƏRİ VƏ ABŞERON RAYONU ÜZRƏ:**	
5.1	BİBİHEYBƏT-ƏLƏT İSTİQAMƏTİNDƏ	HƏR AYIN 2-Cİ VƏ 3-CÜ HƏFTƏSİNİN II VƏ III GÜNLƏRİ
5.2	ZIĞ-PİRALLAHI İSTİQAMƏTİNDƏ	HƏR AYIN 2-Cİ VƏ 3-CÜ HƏFTƏSİNİN II VƏ III GÜNLƏRİ
5.3	ŞİMAL QRES-NARDARAN İSTİQAMƏTİNDƏ	HƏR AYIN 2-Cİ VƏ 3-CÜ HƏFTƏSİNİN IV VƏ V GÜNLƏRİ
5.4	GORADİL-Z.TAĞIYEV İSTİQAMƏTİNDƏ	HƏR AYIN 2-Cİ VƏ 3-CÜ HƏFTƏSİNİN IV VƏ V GÜNLƏRİ

Qeyd edilib ki, cədvəldə göstərilmiş günlər hava şəraitindən asılı olaraq dəyişdirilə bilər.

9 yeni süni ada yaradılacaq

Danimarka paytaxtında 9 yeni süni ada yaradılacaq.

Danimarka KİV-ləri xəbər verir ki, bu ölkənin hökuməti Kopenhagen sənaye rayonunun genişləndirilməsi və yeni investisiyaların cəlb olunması üçün yanvarın 7-də doqquz yeni süni adanın yaradılması planını dəstəkləyib.

Hökumətin planına görə, yeni layihə 3 milyon kvadratmetr ərazini əhatə edəcək. Gözlənildiyinə görə, layihənin reallaşdırılmasına təqribən 380 müəssisə cəlb ediləcək, 12 min iş yeri yaradılacaq. Ölkə iqtisadiyyatı 8 milyard dollardan çox artacaq ki, bu da Danimarkada ümumi daxili məhsulun 2,5 faizinə bərabərdir. Adaların yaradılması Kopenhagen və Xvidovr şəhərləri bələdiyyələri, habelə bir sıra pensiya şirkətləri arasında əməkdaşlıq çərçivəsində həyata keçiriləcək.



Kopenhagendən olan məişət tullantılarından bioqaz istehsal etmək, çirkab suları təmizləmək və külək dəyirmanlarının ekoloji təmiz enerjisini toplamaq üçün adalardan birində zavod inşa ediləcək. Digər adalarda sənaye şirkətləri üçün yerlər yaradılacaq.

Tikinti 2022-ci ildə başlaya, layihə isə 2040-cı il üçün tam reallaşa bilər.

Krallığın iqtisadiyyat və daxili işlər naziri Simon Ammittsböl–Bille deyib: "Biz biznesin, investisiyaların və yüksək ixtisaslı işçi qüvvəsinin cəlb edilməsi üçün beynəlxalq rəqabətdə güclü olacağıq. Bu, təkcə paytaxtda deyil, bütün Danimarkada yüksəlişə və inkişafa kömək edə bilər".

KİV-lər yazırlar ki, yeni layihə dövlətin dəstəyini alandan sonra Danimarka parlamenti tərəfindən də bəyənilməlidir. Tikinti işləri yalnız bundan sonra başlaya bilər.

Qeyd edək ki, Zelandiya, Slotsholmen və Amager adalarında yerləşən Kopenhagen süni adacıqların tikintisi hesabına artıq dəfələrlə genişlənib.

Rauf Əliyev

Dünya okeanları gözlənildiyindən 40 faiz daha sürətlə isinir

Alimlər müəyyən ediblər ki, dünya okeanları gözlənildiyindən 40 faiz daha sürətlə isinir. Bunun səbəbi atmosferə emissiya olunan karbon dioksid qazının əmələ gətirdiyi istinin okean sularına qarışmasıdır.

"The New York Times" qəzetinin yazdığına görə, "Science" jurnalının elmi məqaləsində okeanlarda istiləşmənin beş il əvvəl BMT-nin verdiyi proqnozlardan daha sürətlə baş verdiyi və son illər rekord həddə çatdığı qeyd olunub. Yeni tədqiqatlara dair hesabatda göstərilir ki, bu baxımdan 2018-ci ildə mənfi tendensiya güclənməkdə davam edib.

"Berkeley Earth" qrupunun hazırladığı hesabatda vurğulanıb ki, dünya okeanları insan fəaliyyətinin zərərli nəticələri olan qazların 93 faizini udur. Rutgers Universitetinin professoru Malin Pinskinin sözlərinə görə, hazırda onların sayəsində Yerdə ekoloji tarazlıq qorunur, lakin atmosferə buraxılan qazları udan okeanlarda flora və fauna sürətlə məhv olur, suyun səviyyəsi qalxır və dağıdıcı tufanların sayı getdikcə artır. Alim əlavə edib ki, daha yüksək temperaturu olan okeanlardan balıqlar digər su hövzələrinə axın edirlər. "Bir çox ölkələrdə insanların qida rasionunun əsasını təşkil edən balıqların sürətlə azalması təkcə sosial gərginliyə deyil, habelə ölkələr arasında münaqişəyə də səbəb ola bilər", - deyə Pinski diqqətə çatdırıb.

Alimlər xəbərdarlıq edirlər ki, okean sularının isinməsi nəticəsində 2017-ci ildə baş vermiş Harvey və bir il sonra daha çox dağıdıcı təsir göstərən Florens tufanlarından da güclü fəlakətlər ola bilər. Artıq son üç ildə milyonlarla insanın qida mənbəyi olan mərcan riflərinin beşdəbir hissəsi məhv olub. "Okeana" ekologiya qrupunun tədqiqatçısı Ketrin Metyu bildirib ki, mərcan riflərinin məhv olması tropik zonalarında yaşayan insanların ərzaq təminatına mənfi təsir göstərəcək. Onun sözlərinə görə, okeanların flora və faunasının məhvi son nəticədə insanları protein mənbəyindən məhrum edəcək.

2000-ci ildən başlayaraq ekoloqlar okean sularının temperaturunu "Argo" adlanan üzən dreyf vasitəsilə ölçürlər. Yunan əsatirindəki gəminin adından götürülmüş bu dreyf məlumatları peyk vasitəsilə ötürür. Məhz bu dreyfin tədqiqatları BMT-nin 2014-cü ildə verdiyi proqnozları altüst edib.

DNT-ni kəşf etmiş bioloq fəxri adlardan məhrum edilib

ABŞ-da onkologiya, neyrobiologiya, bitki genetikası, genomika və bioinformatika sahəsində tədqiqatlarla məşğul olan "Cold Spring Harbor" laboratoriyası Nobel mükafatı laureatı, DNT-ni kəşf etmiş bioloq Ceyms Uotsonu fəxri adlardan məhrum edib.

"RİA Novosti" xəbər verir ki, alimin fəxri adlardan məhrum edilməsinə səbəb onun müxtəlif irqlərin nümayəndələrinin intellektual qabiliyyətlərinin qeyri-bərabər olması barədə söylədikləri olub.

Bildirilir ki, 90 yaşlı professor PBS teleşirkətinin çəkdiyi, yanvarın 2-də efirə çıxmış sənədli filmdə dediyi sözlər "Cold Spring Harbor" laboratoriyasının əməkdaşlarını hiddətləndirib. Onlar bildiriblər ki, doktor Uotsonun söylədikləri pislənilməyə layiqdir, bu fikirlər elmi dəlillərlə təsdiq edilmir və "laboratoriyanın mövqeyini əks etdirmir".

Nəticədə Ceyms Uotson fəxri qəyyum, Oliver Qreys adına əməkdar professor və əməkdar rəhbər adlarından məhrum edilib.

Ceyms Uotson müasir biologiyanın və genetikanın banilərindən biri hesab edilir. 1953-cü ildə o, iki həmkarı ilə birlikdə DNT molekulunun quruluşunu kəşf edib. Bu kəşfə görə 1962-ci ildə həmin alimlər fiziologiya və təbabət sahəsində Nobel mükafatına layiq görülüblər.

Cənubi Koreyada gəmi qəzasında ölən və itkin düşənlər var



Cənubi Koreyanın sahil sularında göyərtəsində 14 nəfərin olduğu balıqçı qayığının yük gəmisi ilə toqquşaraq batması nəticəsində 3 nəfər ölüb, 2 nəfər itkin düşüb.

Yonhap agentliyi xəbər verir ki, hadisə ölkənin cənubundakı Yokci adasından 80 kilometr məsafədə yerli vaxtla gecə 5:00 radələrində baş verib.

Cənubi Koreya Sahil Mühafizə Xidmətinin məlumatına əsasən, kapitan, dənizçi və 12 balıqçının olduğu qayıq Panama qeydiyyatındakı 3 min tonluq yük gəmisi ilə toqquşub. Hadisə yerinə gələn digər gəmilər 9 nəfəri xilas ediblər. Qayığın kapitanı da daxil olmaqla iki nəfərin cəsədi tapılıb. Digəri isə xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. İtkin düşən iki nəfərin axtarışı davam edir.

YARIZARAFAT, YARIGERÇƏK

Bəziləri elə bilir ki, idman hərəkətləri olduğu üçün başqasının sözü ilə çox oturub-durmağın cana faydası var.

Bəyəniləsi bir iş görməyənlər də özlərindən əvvəlkiləri niyə bəyənmirlər?

Söz! Səni nə günə qoydular...

Paxıllıq etdiyimi düşünənlər! Yaltaqların, riyakarların, ikiüzlülərin... nəyinə paxıllıq edim?

Təkcə yaxşını pisdən yox, pisləri də bir-birindən ayırmaq lazımdır.

Kimin nəyi çox olsa da, təki üzü bir dənə olsun.

Mən kimlərinsə düzələ biləcəyinə ümid edirəm və təəssüf ki, ümidim elə ümid olaraq da qalır.

Mənasız adamların hərəkətlərində məna axtarmağa dəyməz.

Mənə elə gəlir ki, bəzilərini heç cəhənnəmə də buraxmayacaqlar.

Aldanmaq istəmirsənsə, sənə dost deyənlərin başqaları ilə rəftarına diqqət yetir. Pislik etməyə qadir adamlar üçün dosta xəyanət çətin iş deyil.

Qorumadığın torpaqda basdırılmaq hüququn da yoxdur.

Niyə hamı təkcə yaxşının hesabına yaxşı yaşamaq istəyir?

Bir vaxtlar "mavilər"ə birtəhər baxırdıq. Nədənsə, indi "mavilər" bizə birtəhər baxırlar.

İşıq etibarsız adamın əlində olanda, it hürən tərəfə gedən çox olur.

O yerdə ki, hər şey hər kəsin qabiliyyətinə görə deyil, orada qalibiyyətdən danışmağa dəyməz.

Həqiqəti deməyə gücü çatmayanın gücü çatan işlərdən nə faydası?

Xeyirxah əməllərinizlə ömrünüzdən çox yaşayın.

Tamahın əsiridirsə, deməli rəzillərin rəzilidir.

Hamı yüngül işdən yapışdığından mənə heç vaxt yüngülü düşməyib.

Başımıza gətirilən çox oyunun "ssenari" müəllifləri adətən yaltaqlar olur.

Alın yazısını yazmaq üçün qələm lazım deyil.

Hər kəs yalnız asılı olduğu şəxsin dediyini desə, həqiqəti kim deyəcək?

Bəzilərinin konkret kimə işlədiyi bilinməsə də, haqqa işləmədiyi aydın görünür.

Adamlığı olmayanların qapısını döyməyin. Yoxsa ömrünüz boyu peşmançılığını çəkəcəksiniz.

Bəzi adamlarla bir kəlmə belə kəsmirəm. Onsuz da arxada başqa cür danışırlar.

Başqasının hesabına kişi olmaq mümkün deyil. Uzağı, pullu olmaq olar.

Vətəni nə satmaq, nə atmaq olar.

Güllə səsinə əyilməyən pulun səsinə çətin ki, əyilə.

Nə qədər yaxın olmalıyıq ki, dediklərimiz bir-birimizə çatsın?

Yaltaqlarla işləmək fərarilərlə döyüşə getmək kimidir.

Kredit yıxan evləri fələk də yıxa bilməz.

"Qarabağ şikəstəsi"nə ağlayan Qarabağ şikəstinə ağlayandan çoxdur.

Pulun gücünə hətta pulu olmayanlar da inanır.

Yalan o qədər mundar şeydir ki, hətta özünü aldatmaq da qəbuledilməzdir.

Yalanla çox uzağa getmək mümkün olsaydı, ən azı, indi gözə yalançı dəyməməli idi.

Yer var, orada canavara qoyunu göstərirlər, yer də var qoyuna canavarı.

Mübariz İbrahimov ürəklərdə özünə Azərbaycan boyda heykəl ucaldıb.

Hamımız Mübariz ola bilməsək də, hamımız mübariz olmalıyıq.

Bəzilərində fərasətə bax da. "Tarix-Nadir"i demək olar ki, oxuyub bitiriblər.

Rasif TAHİROV

İdmanın intellektual növləri ilə məşğul olmaq ömrü uzadır

Avstraliya mütəxəssisləri müəyyən ediblər ki, şahmat oynamaq aydın zəka və fəal həyat tərzi tələb edir. Bu amillərin məcmusu şahmatçıların hətta idmanın fiziki növlərinin nümayəndələrindən də çox yaşamasına imkan verir.

Melburn Universitetinin mütəxəssisləri uzunömürlülüyün reseptini müəyyən ediblər. İdmanın intellektual növləri ilə məşğul olmaq ömrü yeddi il uzadır. Söhbət, o cümlədən şahmatdan gedir.

Alimlər tədqiqatın gedişində 16 min şahmatçının sağlamlıq durumunu təhlil ediblər. Bu barədə məlumatı şahmat oynamayan adi insanın göstəriciləri ilə müqayisə ediblər. Məlum olub ki, şahmat həvəskarları bu sahədə hətta idmanın fiziki növləri ilə məşğul olan rəqiblərindən də üstündürlər.

Futbol üzrə 2022-ci il dünya çempionatında 48 yığma komanda çıxış edə bilər

FIFA-nın prezidenti Canni İnfantino bildirib ki, 2022-ci ildə Qətərdə keçiriləcək futbol üzrə dünya çempionatı 32 deyil, 48 yığma komandanın iştirakı ilə keçirilə bilər. Əvvəllər bu yeniliyin 2026-cı ildə tətbiq olunacağı nəzərdə tutulurdu.

FIFA prezidenti AFP agentliyinə deyib: "2026-cı ildən iştirakçıların sayının artırılması hamı tərəfindən yaxşı qərar kimi bəyənilmişdi və biz onun artıq 2022-ci ildə tətbiqi imkanlarını araşdırırıq. Federasiyaların əksəriyyəti bunun tərəfdarıdır. Lakin təşkilatçıların imkanlarını da öyrənmək lazımdır. Əlbəttə, Qətərdə 48 yığma komandanın iştirakı ilə çempionat keçirmək asan olmayacaq. İdeya ondan ibarətdir ki, matçların bir neçəsi qonşu ölkələrdə təşkil edilsin".

Bundan əvvəl Qətər də bəyan etmişdi ki, iştirakçıların sayının 48 yığma komandaya çatdırılmasına hazır deyil. Buna cavab olaraq, təşkilatın rəhbəri bildirib ki, bir sıra matçlar qonşu ölkələrdə də keçirilə bilər.

Qədir Hüseynov Paul Keres memorialının blits turnirinin qalibi olub

Azərbaycanlı qrossmeyster Qədir Hüseynov Tallinn şəhərində keçirilən Paul Keres memorialında uğurla çıxış edib.

11 ölkədən 88 şahmatçının qatıldığı turnirdə Qədir Hüseynov keçirdiyi 9 oyundan 7 qələbə və 2 heç-heçə ilə blits turnirini birinci yerdə başa vurub. Memorial çərçivəsində keçirilən rapid yarışında 7 oyunda 6 xal yığan şahmatçımız üçüncü yeri tutub.

Dünya Boks Şurası Deontey Uaylderlə Tayson Fyuri arasında revanşla bağlı tapşırıq verib

Dünya Boks Şurası (WBC) super ağır çəki dərəcəsində dünya çempionu amerikalı Deontey Uaylderlə keçmiş dünya çempionu, narkotik və doping probleminə görə, titullarından məhrum olmuş britaniyalı Tayson Fyurinin revanşla bağlı danışıqlara başlaması barədə qərar qəbul edib.

WBC bununla bağlı xəbərdarlığında qeyd edib: "Əgər idmançılar öz aralarında razılıq əldə edə bilməsələr, o zaman fevralın 5-də müsabiqə təşkil ediləcək və döyüşün taleyinə aydınlıq gətiriləcək".

Müsabiqənin təşkili üçün WBC mükafat fondunu bölüşdürməsi ilə bağlı standartlara dəyişiklik edib. Belə ki, mükafat fondu çempionun xeyrinə 70/30-dan 60/40-a dəyişdirilib.

Boksçuların ilk döyüşü heçheçə bitib.

Bir sıra xəstəliklər kişilər və qadınlarda müxtəlif formalarda özünü büruzə verir

Eyni xəstəliklərin simptomları qadın və kişilərə görə fərqli ola bilər.

Zdorovye Mail.Ru saytı xəbər verir ki, bir sıra xəstəliklər kişilər və qadınlarda müxtəlif formalarda özünü büruzə verir. Bu simptomların fərqliliyi həyat üçün təhlükəli ola bilər.

İnfarkt

Çoxlarına infarktın ilk simptomları məlumdur. Bunlar əsasən döş qəfəsində ağrı və sıxılma hissi, nəfəs almada çətinliklərdir. Mütəxəssislərin fikrincə bu kişilərə xas xüsusiyyətlərdir. Bəzi qadınlarda da eyni simptomlar ola bilər, lakin bunu hamıya şamil etmək düzgün deyil. Belə ki, hələ qədim zamanlardan bir çox xəstəliklərin tədqiqi kişilər üzərində aparılıb və nəticələrin hamıda, yəni kişi və qadınlarda eyni olacağı düşünülüb. Lakin bir neçə müddət əvvəl həkimlər infarktın kişilərə nisbətən qadınlarda daha fərqli baş verdiyini müşahidə ediblər. Bildirilib ki, bu səbəbdən kişilərə və qadınlara infarktdan fərqli müalicə tətbiq olunmalıdır. Əks halda kişilərin müalicəsində kömək edən üsul qadınların ölümünə səbəb ola bilər.

Alimlər bu prosesin qadınlarda neçə baş verdiyini öyrənmək məqsədilə araşdırma aparıblar. Məlum olub ki, ürək tutması zamanı qadınlar döş qəfəsində deyil, kürəkdə, çənədə, boyunda və qarında ağrı hiss edə bilərlər. Bundan əlavə xanımlarda ürək tutması zamanı baş gicəllənməsi, tənəffəslik, ürək bulanması, qusma və həddindən artıq tərləmə kimi əlamətlər də ola bilər. Sadalanan qeyri-adi simptomlar səbəbindən infarkt adi soyuqdəymə və ya mədə problemi kimi də qəbul edilə bilər ki, bu da zaman itkisi ilə nəticələnər.

Alkoqolizm və narkomaniya

Müəyyən maddələrdən asılılıq da qadınlar və kişilərdə müxtəlif formalarda özünü büruzə verir. Misal üçün kişilər qadınlara nisbətən pis vərdişlərə daha tez aludə olurlar. Qadınlar isə bu problemlə daha yuxarı yaşda üzləşirlər. Buna baxmayaraq qadınlar müalicə üçün daha sıx müraciət edirlər ki, bu da onların asılılıq dövrünü nisbətən azaldır. Hər iki cinsin zərərli maddə istifadəsinin səbəbləri də fərqlidir. Qadınlar çox vaxt bu vərdişlərə yanaşı psixi pozuntular, depressiyalar və həyəcan kimi problemlər səbəbindən aludə olurlar. Kişilər isə içki və narkotiklərdən xoş təəssürat, stressin aradan qaldırılması kimi bir sıra səbəblərdən istifadə edirlər.

Şizofreniya

Bu psixi pozuntu qadınlara nisbətən kişilərdə daha erkən yaşlarda yaranır. Kişilərdə şizofreniyanın ilk simptomları 18-25, qadınlarda isə 25-35 yaşlarında meydana çıxır. Qadınlarda bu problem daha gec-40 yaşdan sonra da özünü büruzə verə bilər.

Xəstəliyin özünü göstərməsi cinslərə görə də dəyişir. Kişilərdə xəstəlik özünü apatiya, halsızlıq, yuxusuzluq, qavrama qabiliyyətlərinin pozulması kimi bir sıra mənfi simptomlarla bəlli edir. Qadınlarda isə şizofreniya depressiya, yüksək həyəcan, paranoid psixoz, qəribə fikirlərlə müşahidə edilir.

Şizofreniya diaqnozu olan qadınlar xəstəlik zamanı klinikalarda daha az zaman keçirir, vəziyyətləri daha asan tənzimlənir. Mütəxəssislərin fikrincə buna səbəb dərman preparatlarının qadınlara daha yaxşı təsir etməsidir. Kişilərdə isə bu preparatların nisbətən az təsiredici olması ilə yanaşı, onların cinsiyyət orqanlarına da mənfi təsir göstərir. Məhz bu səbəbdən də kişilər dərman vasitələrindən imtina edir, müalicəni yarıda dayandırırlar.

Göz yorğunluğunu aradan qaldıran təbii üsullar

"Gözlər qəlbin aynasıdır" bədii ifadə olsa da, həqiqətə də uyğundur. Gözlər insan simasında ən yaddaqalan nişanələrdən biridir. Gərgin iş günündən sonra gözlər hədsiz yorğun görünür, hətta bəzən qızarır, qaşınır, şişir, qaralır, görmə itiliyi azalır. Müxtəlif dərman vasitələri ilə bu problemlərin qarşısını almaq mümkün olsa da, bunun asan, əlçatan və təbii üsulları da var.

AZƏRTAC-a bu barədə həkim-fitoterapevt Ulduz Hüseynova məlumat verib.

Həkim göz yorğunluğunu və görmə zəifliyini aradan qaldırmaq üçün məsləhət gördüyü ən sadə üsullar haqqında danışıb: "Bunun üçün 1 körək qaşığı zirə meyvəsi, 1 çay qaşığı göyçiçək çiçəyi və 1 çay qaşığı bağayarpağı yarpaqlarını buxara verilir, alınan damcılar gündə 3-5 dəfə gözlərə damızdırılır.

Aptek çobanyastığı və gülümbahar çiçəkləri qarışığından 3 körək qaşığının üzərinə 1 stəkan qaynar su əlavə edilir, 15-20 dəqiqə dəmdə qalandan sonra həmin dəmləmə ilə gözlərə islatma qoyulur və ya yuyulur.

Bir qədər təmiz bal isti suda həll edilib gözə damızdırılır.

Cəfəri yarpaqları horra şəkilinə salınaraq tənzifin içərisinə yığılır və 15-20 dəqiqə gözlərin üzərinə islatma qoyulur. Proseduru gün ərzində bir neçə dəfə təkrarlamaq olar.

Gözlərin üzərinə təzə kəsilmiş xiyar və ya kartof dilimləri qoymaqla da yaxşı nəticə əldə etmək mümkündür. Həmçinin göz qapaqları üzərinə xiyar şirəsində isladılmış pambıq tamponlar da qoymaq olar. Eyni zamanda, sürtgəcdən keçirilərək tənzifin arasına qoyulmuş kartofla da göz qapaqlarına edilən islatma göz üçün xeyirlidir.

Pambıq tampon təzə dəmlənmiş qara çayda isladılır və hər gün axşam yatmazdan əvvəl gözlərin üzərinə qoyulur.

Su ilə durulaşdırılmış aloe şirəsi gözlərə damızdırılır.

Bundan əlavə, daxilə qəbul olunan bəzi bitkilərlə də göz sağlamlığını qorumaq mümkündür. Misal üçün, hər gün səhər acqarına yarım stəkan təzə çəkilmiş kök şirəsi içdikdə görmə qabiliyyəti yaxşılaşır. Belə ki, məlum olduğu kimi kök göz üçün faydalı A vitamini ilə zəngindir.

Qaragilə meyvələrini yemək də görmə qabiliyyətini yaxşılaşdırmaq üçün ideal vasitələrdən biridir.

Ani əzələ qıcolması

Orqanizmdə təxminən 640 əzələ var və onlar gün ərzində dəfələrlə yığılıb açılır. Əzələ qıcolması güclü ağrı ilə müşayiət olunan əzələ və ya əzələ qrupunun qeyri-iradi yığılmasıdır. Qıcolmalar, adətən, hərəkətinə iki oynağın cəlb olunduğu əzələlərdə baş verir. Problemə baldır və budun arxa, ön qrup, xüsusən də budun dördbaşlı əzələlərində daha çox rast gəlinir.

Həkim-endokrinoloq Gülay Məmmədova AZƏRTAC-a müsahibədə bu barədə deyib: "Əl və ayaq pəncəsi, qarın, döş qəfəsi əzələləri də qıcolmaya məruz qalır. Əzələlərdə qıcolmalar qaçış, tennis, üzgüçülük və ya digər fiziki məşqlər zamanı daha çox yaranır. Qıcolma kompüter arxasında oturanda, gəzinti zamanı və ya yuxulayanda da meydana çıxa bilər.

Risk qrupuna kiçik yaşlı uşaqlar, 65 yaşından yuxarı yaşlılar, hamilə qadınlar, artıq çəkidən əziyyət çəkənlər, fiziki məşqlər və ya iş zamanı gərginlik yaşayanlar, həmçinin bəzi dərman preparatlarını qəbul edənlər daxildir.

Əzələ qıcolmasının səbəbləri məlum olmasa da, yaranması haqqında iki nəzəriyyə var. Bir qrup tədqiqatçılar hesab edirlər ki, əzələlər gün ərzində yetəri qədər dartılma hərəkəti etmədikdə əzələ yorğunluğu və qıcolmalara aparıb çıxarır, qan dövranı pozulur və əzələlərin normal işləməsi üçün lazım olan oksigen və qlükozanın çatdırılması ləngiyir. Özünü müdafiə səbəbi ilə əzələlərdə ani olaraq yığılmalar baş verir.

Digər nəzəriyyəyə görə isə qıcolma isti havada fiziki işlə məşğul olanda və ya uzun müddət susuz qalanda orqanizmin itirdiyi duzlar, xüsusilə də kalsium, maqnezium, kalium və natrium ionlarının çatışmazlığı nəticəsində yaranır. Bundan başqa uzun müddət eyni vəziyyətdə hərəkətsiz qalmaq da əzələlərdə qeyri-iradi yığılmalara səbəb ola bilər".

Həkim-endokrinoloqun dediyinə görə, adətən, qıcolmalar özbaşına keçib gedir: "Onu tez aradan qaldırmaq üçün isə bir sıra üsullardan istifadə etmək olar. Məsələn, qıcolma yaranan kimi dərhal hərəkəti dayandırmaq, əzələni ehmalca dartmaq və masaj etmək, ayaq pəncəsini əllə ehtiyatla özünə tərəf qaldırmaq lazımdır. Həmin hərəkət zamanı diz oynağı tam açılmalıdır. Əgər budun arxa əzələsi qıc olubsa, diz oynağı bükülü vəziyyətdə olmalıdır.

Qıc olmuş əzələyə bir neçə dəqiqə istirahət vermək olar. Əzələni yığmaq istəyi ikinci qıcolma ilə nəticələnə bilər. Qıcolma keçdikdən sonra əzələ hələ də gərgin vəziyyətdədirsə, onu masaj etmək, isitmək və sarğı ilə sıx bağlamaq lazımdır.

Əzələ qıcolmalarının qarşısını almaq üçün daim yüngül fiziki məşqlər və əzələlərin dartılma hərəkətləri etmək lazımdır. Balanslaşmış qidalanmanı da unutmaq olmaz. Rasionda kifayət qədər kalsium, maqnezium, natrium və kalium tərkibli qidalar olmalıdır. Əzələlərdə qan dövranını zəiflədən siqaret, alkoqol, qəhvə, tünd qara çay, qazlı və turşulu içkilərin qəbulu azaldılmalıdır.

Qıcolmalar bir qrup əzələlərin insanın iradəsindən asılı olmadan şiddətli və ağrılı yığılmasıdır. Bu problemlə üzləşməyən çox az adam ola bilər. Hər kəs ömründə bir dəfə də olsa əzələ qıcolması ilə qarşılaşır və bu, bir neçə saniyədən 15 dəqiqəyə qədər davam edir".

Qıcolmanın səbəbləri barədə isə həkim bunları deyib: "Uzun müddət oturmaq, həddən artıq gəzmək, idmanla çox məşğul olduğuna görə əzələ yorğunluğu olsa da, bəzi xəstəliklərin əlaməti də ola bilər. Parkinson, yastı pəncəlilik, şəkərli diabet, hipotireoidizm (qalxanvarı vəzinin funksiyasının azalması), su və elektrolit itkisi ilə gedən bəzi xəstəliklər, kalsium, maqnezium, D və B12 vitaminlərinin çatışmazlığı, əzələnin qan dövranı pozuntusu, alkoqolizm, bəzi dərmanların qəbulu (bəzi təzyiqsalıcı, sidikqovucu və antidepressant dərmanlar) əzələ qıcolmalarına səbəb ola bilər. Hamiləlik zamanı ayaqlarda əzələ qıcolmaları daha çox rast gəlinir. Bunun səbəbi uşaqlıq daxilində böyüyən dölün bəzi sinirlərə və damarlara təzyiq göstərməklə, ayaqlarda qan dövranının qismən pozuntusu ola bilər. İdman hərəkətləri edəndən sonra əzələ qıcolmaları varsa, əvvəldən isinmə hərəkətləri edilməlidir. Gecə yatanda əzələ qıcolmaları olduqda, yatmazdan əvvəl ayaq əzələləri üçün xüsusi idman hərəkətlərinə ehtiyac var. Soyuq ayaqlarda əzələ qıcolmalarına təkan verir. Bu səbəbdən ayağı isti saxlamaq və ya xüsusi isidici yastıqlardan istifadə etmək lazımdır".

Daltonizm yaş artdıqca ağırlaşır

Daltonizm-rəng korluğu gözün görmə mərkəzindəki xüsusi piqmentlərin yoxluğu və yaxud əskikliyi nəticəsində yaranan xəstəlikdir. Problemə səbəb göz arxasında yerləşən rəng detektorundakı hüceyrələrdə olan konusların içərisindəki 3 piqmentin (qırmızı, yaşıl və mavi) hansısa birinin və ya hər üçünün az olması, yaxud da heç olmamasıdır. Bu patoloji hala ilk dəfə olaraq 1798-ci ildə ingilis Con Dalton adlı bir kişidə rast gəlinib. Sonradan onun adı ilə adlandırılan daltonizm bəzi insanların qırmızı və yaşıl rəngi seçə bilməməsidir.

İrsən keçən bu xəstəliyə ən çox oğlan uşaqlarında rast gəlinir. Lakin az hallarda da qız uşaqları da bu çatışmazlıqdan əziyyət çəkirlər. Əgər bu xəstəlik valideynlərdən birində varsa, bu, oğlan uşaqlarında rast gəlinməsi üçün yetərli səbəbdir. Hər iki valideynin daltonik olması qız uşaqlarında bu xəstəliyin əmələ gəlməsinə səbəb olur. Daltonik bir kişinin qızı heç vaxt daltonik olmur, lakin əlamətləri özündə daşıyır və gələcəkdə onun oğlu bu problemlə doğula bilər. Hazırda dünyada kişilərin 8, qadınların isə 0,5 faizi daltonikdir.

Daltonizm tam və qismən rəng korluğu olmaqla iki qrupa ayrılır. Uşaqlıq və ya yeniyetmə dövründən başlayan daltonizm yaş artdıqca ağırlaşır. Xəstəliyin əmələ gəlməsinin başlıca səbəbi genetikdir. Belə ki, problem X xromosomu üzərində daşınır. Lakin beyin travmaları, gözün üst təbəqəsinin zədələnməsi, uşaq ikən ultrabənövşəyi şüalara çox məruz qalınması da xəstəliyin yaranmasına səbəb ola bilər.

Maraqlıdır ki, daltonizmə təkcə insanlarda deyil, heyvanlarda da rast gəlinir.

Bu problemin dəqiq bir müalicəsi olmasa da, qismən rəng korluğu olduqda xromogen linza və xüsusi eynəklərlə xəstənin görə bilmədiyi rənglər parlaq bir hala gətirilə bilir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 294